Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 89 (8112) CÜMƏ AXŞAMI, 25 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Prezidenti İlham Əliyev Çinə işgüzar səfərə gedib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Pekin şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Çinin xarici işlər nazirinin müavini Can Hanhuy və digər rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Avrasiyada Çinin əsas tərəfdaşlarından biridir

Aprelin 24-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.

AZƏRTAC xəbər verir ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Çin Xalq Respublikasının sədri **Si CİNPİN** dedi:

- Cənab Prezident Əliyev, Sizi Pekində bir daha salamlayıram, qarşıdakı "Bir kəmər, bir yol" 2-ci Beynəlxalq Əməkdaşlıq Forumuna xoş gəlmisiniz. Azərbaycan tərəfi və şəxsən Siz Çin-Azərbaycan münasibətlərinin inkişafına, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirirsiniz. Biz bunu yüksək qiymətləndiririk.

Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz. Sizin ölkəniz Böyük İpək yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram.

Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır.





❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti **İlham ƏLİYEV** dedi:

- Cənab Sədr, mənim ünvanıma söylədiyiniz və ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Mən Sizə, ilk növbədə, dəvətə görə təşəkkür etmək istərdim. Biz "Bir kəmər, bir yol" Forumunda iştirak etməyə dəvət olunmağımızı ölkəmizə xüsusi hörmət əlaməti, mənə münasibətdə dostluq əlaməti hesab edirik. Siz qeyd etdiniz ki, mən Sizin ölkənizin dostuyam, Azərbaycanda da Sizi Azərbaycanın xeyirxah dostu kimi tanıyırlar. Biz birgə səylərimizlə əməkdaşlığımızı irəlilədirik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik.

Bu forumun keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Siz qeyd etdiyiniz kimi, Azərbaycan lap əvvəldən Sizin təşəbbüsünüzü dəstəkləyib və bu layihəni bizim irəli sürdüyümüz təşəbbüslər çərçivəsində fəal irəlilədir. 2015-ci ildə Sizin ölkənizə dövlət səfərimi və burada mənə göstərilən qonaqpərvərliyi xatırlamaq istərdim. O vaxt Sizinlə biz "İpək Yolu İqtisadi Kəməri" haqqında Anlaşma Memorandumunu imzaladıq. Bu gün bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

❖ ❖ ❖

Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasətinin həyata keçirildiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. O, Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğuladı. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Transxəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın "Vahid Çin" siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpini ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

## Bütün yollar Azərbaycandan keçir

### İlham Əliyevin regional təşəbbüsləri qlobal layihələrin əsas aktoruna çevrilir

2200 il əvvəl - miladdan öncə II əsrdə Çanqandan başlayıb Aralıq dənizinin sahillərinədək, Tire şəhərinə qədər bir karvan yolu uzanırdı. Məqsədləri Çin ipəyini (sonralar bura barıt, kompas, çap dəzgahları və o dövr üçün innovativ sayılan digər ixtiralar da əlavə olundu) Avropaya satmaq olsa da, əslində, ticarətin ilk ən genişmiqyaslı logistikasını, dəhlizini formalaşdırır, keçdikləri hər şəhərə rifah, yeni iqtisadi normalar gətirirdilər. Məmləkətimizin də aid olduğu bu nəqliyyat coğrafiyası əhatələndiyi bölgələri inkişaf etdirir, yaşayış məskənləri yaranır, əlbəttə, həm də yeni münaqişələrə səbəb olurdu.

### Minillik karvan yolunun müasir marşrutunda Heydər Əliyev imzası

XVI yüzillikdə yeni dəniz və daha təhlükəsiz quru yollarının meydana gəlməsi ilə əhəmiyyətini itirərək tarixə qovuşan İpək yolu bir də dörd əsr sonra iqtisadi gündəmin əsas mövzularından birinə çevrildi. Dünyanın yenidən bölüşdürülməsi prosesinin məntiqi nəticəsi olaraq, yalnız onlarla ölkənin enerji resurslarına və iqtisadi potensialına sahib olmaq kifayət etmirdi. Həm də nəqliyyat-daşıma dəhlizlərinə, ticarət marşrutlarına nəzarət vacib idi.

Ötən əsrin 90-cı illərinin iqtisadi mənzərəsi bütün sahələrdə təkmilləşməni şərtləndirirdi. Bir anda yeni dövlətlərin meydana çıxması və onların dünya bazarına azdan-çoxdan müxtəlif çeşidli mallar təklif etməsi daha müasir iqtisadi-ticarət münasibətlərini formalaşdırır, məhsul satışının qlobal ticarət ünsürü kimi daha səmərəli vasitələrlə təşkilini zəruri edirdi. Ticarətin yeni iştirakçılarının sayının davamlı artması nəqliyyat-logistika sisteminin də şaxələndirilməsini və yeni marşrutların yaranmasını əsas çatışmazlıq kimi meydana çıxartmışdı.

*Ardı 4-cü səh.*

## Sahibkarlığın dinamik inkişafı Prezidentin bu sahəyə xüsusi diqqətinin təzahürüdür

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə çağdaş tariximizdə keyfiyyətcə yeni dövrün, müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanılmışdı.

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" - deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilirdi. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Ümummilli liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

*Ardı 3-cü səh.*

◆ **Milli qəhrəmanlarımız**

## Azərbaycan oğluyam...



*- Adın nədir?*

*- Albert.*

*- Hansı millətdənsən?*

*- Yəhudi.*

*- Yəhudiləri Azərbaycan torpağını qorumağa nə vadar edir?*

*- Mən bu torpaqda yaşayıram, doğulmuşam burada, yaşayıram burada, daha heç nə məcbur eləmir...*

*- Bir vətəndaş kimi borcunu nədə görürsən?*

*- Gəlib torpağı qorumaqda.*

*- Nə qədər vuruşmağı düşünürsən?*

*- Müharibənin axırına kimi...*

Tankın üzərində yəhudi ləhcəsi və Bakı şivəsinin qarışığı ilə şirin-şirin danışıb gülən bir gənc müsahibə verirdi. Sonradan Azərbaycanın Milli Qəhrəmanı adını alacaq Albert Aqarunov...

Qəribədir ki, mərhum Çingiz Mustafayevin hazırladığı bu videomüsahibə kiminsə kənardan səsləndirdiyi bu yarımçıq cümlə ilə başlayır - "igidliyindən danışdığımız əsgərlərdən biri Albert bundan sonra nə vuruşacaq, nə sevəcək, nə də ki..."

### Ana vətənini seçdi

Ömrünün bahar çağında yollanmışdı döyüşə. Bəlkə də bir qıza könül verib getmişdi cəbhəyə...

Bəlkə onun yolunu bugünə qədər də gözləyən məlul baxışlı bir nigar var...

Bəlkə də ürəyində gizləmişdi sevgisini, kimsəyə deməmişdi, heç sevdiyinin özünə belə...

Çünki o, gələcək arzularını ancaq müharibə bitəndən sonra gerçəkləşdirməyi düşünürdü...

*Ardı 4-cü səh.*

## Əhalinin sosial müdafiəsi gücləndirilir

### Birinci rübdə büdcə gəlirlərinin 41,8 faizi bu sahəyə yönəldilib

Ölkədə həyata keçirilən uğurlu islahatlar sayəsində əhalinin, xüsusilə aztəminatlı təbəqənin sosial müdafiəsi güclənir, həyat səviyyəsi yüksəlir. Dövlət başçısının imzaladığı təksə son sərəncam və fərmanlar nəticəsində 600 minədək şəxsin, o cümlədən 300 min əlilin sosial müavinətinin, Prezidentin aylıq təqaüdlərinin ciddi şəkildə artması bir daha sübut edir ki, əhalinin sosial müdafiəsinə xüsusi diqqət göstərilir.

Həmişə vətəndaşlar arasında olan dövlət başçısı əhalinin problemlərini öyrənir, onların operativ həlli üçün tədbirlər görür. Növbəti belə görüş cənab İlham Əliyevin yenidən prezident seçilməsinin bir ilinin tamam olması gününə düşdü. Həmin gün Prezident Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında qəsəbə sakinləri ilə görüşmüşdür.

Hər dəfə olduğu kimi, bu dəfə də bütün ölkə vətəndaşlarına xoş xəbər verən Prezident İlham Əliyev ənənəsinə sadiq qaldı: "Biz çox ciddi qərar qəbul etdik və bu, vətəndaşların maraqlarını maksimum nəzərə alan qərar oldu. Təqribən 800 minə yaxın insan bu fərmandan faydalanacaq. O cümlədən minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır. Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. Müvafiq göstəriş verildi. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirir.

*Ardı 5-ci səh.*

# “ZTE” Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanlar var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “ZTE” Korporasiyasının sədri Li Cisue ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, “ZTE” Korporasiyasının sədri Li Cisue onun rəhbərlik etdiyi şirkətin dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olduğunu bildirdi. Çində və xaricdə çoxlu tərəfdaşlarının olduğunu deyən Li Cisue Azərbaycan bazarında da gözəl əməkdaşlıq nümunələrinin mövcudluğunu vurğuladı və ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək istədiklərini bildirdi.



Prezident İlham Əliyev bu əməkdaşlığın uğurlu olacağına ümid etdiyini bildirdi. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının Azərbaycanda prioritet sahələrdən olduğunu deyən dövlət başçısı son illərdə bu sektorun inkişafı üçün xeyli işin görüldüyünü, bu sahəyə investisiyaların yatırıldığını, xarici tərəfdaşlarla əlaqələrin genişləndiyini dedi. Prezident İlham Əliyev “ZTE” Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

# Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “CETC” Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Vu Mançin “CETC” Korporasiyasının Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olduğunu deyərək bu sahədə uzun illərdir uğurla fəaliyyət göstərdiklərini bildirdi. O, bu sahədə Azərbaycan ilə əməkdaşlıq qurduqlarını və bundan məmnun qaldıqlarını vurğuladı, əlaqələrin inkişaf etdiyini bildirdi.



Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır. Dövlət başçısı artıq Çinin bir çox şirkətlərinin timsalında yaxşı tərəfdaşlığın yarandığını bildirdi və Azərbaycanda xarici şirkətlər üçün geniş fəaliyyət sahəsinin olduğunu qeyd etdi.

# Azərbaycan “Bir kəmər, bir yol” layihəsinə mühüm əhəmiyyət verir



Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşüb.

AZƏRTAC xəbər verir ki, Van Yan Azərbaycan Prezidentinin Çinə səfərinin ikitərəfli əlaqələrimizə töhfə verdiyini bildirdi. “Bir kəmər, bir yol” layihəsinin hərtərəfli əməkdaşlığı ehtiva edən geniş ictimai platforma olduğunu deyən Van Yan Azərbaycanın və Çinin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyini vurğuladı. Qeyd etdi ki, ölkələrimiz birgə səylərlə siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığı daha da inkişaf etdirməlidir.

Prezident İlham Əliyev ölkələrimiz arasında bütün istiqamətlərdə əməkdaşlığın inkişafında müsbət dinamikanın olduğunu bildirdi. Azərbaycanın Çin dövləti başçısının təşəbbüskarı olduğu “Bir kəmər, bir yol” layihəsinə mühüm əhəmiyyət verdiyini, bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən olduğunu qeyd etdi. Bildirdi ki, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasına xüsusi önəm verilir. Prezident İlham Əliyev 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Forumuna dəvətə görə təşəkkür etdi, bunu Azərbaycana olan hörmətin və dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı bu səfərinin Azərbaycanla Çin arasında əməkdaşlığın inkişafına ciddi təkan verəcəyini bildirdi.

Söhbət zamanı Çin-Azərbaycan münasibətlərinin və iqtisadi sahədə əməkdaşlığın inkişafı, ticarət dövriyyəsinin artırılması, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, investisiya qoyuluşu və digər məsələlər müzakirə olundu.



# Pekində Azərbaycanla Çin şirkətləri 821 milyon dollarlıq sənədlər imzalayıb

Çinin paytaxtında keçiriləcək 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Forumu çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb.




AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində çıxış edən iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətlərinin iki ölkə arasında əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə olduğunu deyib.

Azərbaycanın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə dəstək göstərən ilk ölkələrdən biri olduğunu diqqətə çatdıran nazir bildirib ki, bu günlərdə Pekində keçiriləcək 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda Prezident İlham Əliyevin iştirakı Azərbaycanın bu təşəbbüsə verdiyi əhəmiyyətin və göstərdiyi dəstəyin bariz nümunəsidir.

O bildirib ki, Azərbaycan Cənubi Qafqaz regionunda Çinin əsas ticarət tərəfdaşıdır. Belə ki, Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində ölkəmizin payı 43 faizdir.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlığın davam etdiyini söyləyən Ş.Mustafayev ötən dövrdə Çin investorlarının Azərbaycana 800 milyon dollardan çox sərmayə yatırdığını bildirib. Azərbaycanın Çin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi isə 1 milyard 700 milyon dollar təşkil edir.

“Biz nəqliyyat və tranzit, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun reallaşdırılması, sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, humanitar və digər sahələrdə əlaqələrimizi genişləndiririk. Bu xüsusda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının rolunu vurğulamaq lazımdır”, - deyə nazir bildirib.

Çinin Kommersiya Nazirliyinin Avrasiya idarəsinin rəisi, Çin-Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Luo Veydon bildirib ki, 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair imzalanan Anlaşma Memorandumu ölkələrimizin iqtisadi-ticarət əlaqələrinin daha da inkişafı üçün istiqamətlər müəyyən edib.

Çin-Azərbaycan iqtisadi-ticari əməkdaşlığının böyük potensialı və parlaq gələcəyi olduğunu bildirən L.Veydon ölkəsinin Azərbaycandan kənd təsərrüfatı, kimyəvi və sənaye istehsalı məhsullarının idxalını daha da artırmağı, internet İpək yolunun yaradılması, İpək yolu elektron ticarətinin inkişafı məsələsində Azərbaycanla əməkdaşlığı dərinləşdirmək istədiyini diqqətə çatdırıb. Bundan başqa, tərəflər Transxəzər Nəqliyyat Dəhlizinin imkanlarından tam şəkildə istifadə ilə bağlı dərin araşdırmalar aparmalı, “Bir kəmər, bir yol” tikintisini təşviq etməlidirlər.

“İki ay əvvəl Çin-Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib. Bu gün iki ölkənin şirkətləri arasında imzalanan sənədlər ticarət, sənaye, kənd təsərrüfatı, kommunikasiya texnologiyaları, logistika və digər sahələri əhatə edir. Bu tam olaraq Çin-Azərbaycan iqtisadi-ticari əməkdaşlığının böyük potensialını və parlaq gələcəyini əks etdirir”, - deyə L.Veydon bildirib.

Sonra Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, “Azerbaijan Digital HUB” proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, Transxəzər Nəqliyyat Dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb.

# Yeni Azərbaycan Partiyasının qərargahında “Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar” adlı tədbir keçirilib

Qondarma erməni soyqırımı kimi bir yalan erməni xalqının məkrli niyyətindən xəbər verir. Ermənilərin irəli sürdüyü bu soyqırımı yalanı heç bir sübuta əsaslanmır. Bu iddianın kökündə Türkiyəyə qarşı ərazi iddiaları dayanır.





AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 24-də Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında keçirilən “Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar” adlı tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, nəinki ermənilər kütləvi şəkildə qətlə yetirilməyib, tam əksinə, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bədnam qonşularımızın soyqırımına məruz qalıb. Bunlar tarixi faktdır. Ermənilər Azərbaycan torpaqlarının iyirmi faizini işğal edib, bir milyondan çox soydaşımız öz yurd-yuvalarından didərgin düşüb.

“Türkiyə və Azərbaycan olaraq bizim qarşımızda duran əsas vəzifə erməni yalanlarını ifşa etməkdir. Bunun üçün iki qardaş dövlət mövcud imkanlarını birləşdirməlidirlər. Uydurma erməni soyqırımının təbliğ edilməsi, bu yalanın bəzi dövlətlər tərəfindən tanınması qəti şəkildə qınanmalıdır. Ermənilərin Türkiyə və Azərbaycan xalqlarına qarşı törətdiyi faciələrin bütün dünyaya geniş şəkildə çatdırılması üçün daha çox səy göstərilməlidir”,- deyə Baş nazirin müavini vurğulayıb.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Türkiyə və Azərbaycan xalqlarına qarşı ermənilərin tarix boyu törətdiyi soyqırımları ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, bu erməni yalanı, əslində, ədalətə qarşı bir haqsızlıqdır. Diplomat deyib: “Ermənilərin tarixi yalanlarla doludur. 1918-ci ildə Qafqaz İslam Ordusu ermənilərin Azərbaycan xalqına qarşı soyqırımının qarşısını almaq üçün bura gəlmişdi. Biz Türkiyə Cümhuriyyəti olaraq bütün tarixi arxivlərimizi açmışıq və hər cür araşdırmalara hazırıq. Lakin Ermənistan bunu etmir”.

Bugünə qədər 34 türk diplomatının erməni terrorçuları tərəfindən qətlə yetirildiyini söyləyən səfir bildirib ki, Ermənistan dövləti Azərbaycan və Türkiyə xalqlarına qarşı törətdiyi soyqırımlarına görə cavab verməlidir.

Sonra Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov çıxış edərək tarixi faktlarla qondarma erməni soyqırımının böyük bir yalan olduğunu göstərib. Bildirib ki, bu tarixi yalan “böyük Ermənistan” iddialarını gerçəkləşdirmək üçün atılmış bir addımdır.

Tədbirdə, həmçinin Milli Məclisin deputatları Fəzail Ağamalı, Asim Mollazadə, Fazil Mustafa, Rauf Əliyev və YAP İdarə Heyətinin üzvü Kərim Kərimov çıxış edərək mövzu ilə əlaqədar fikirlərini bildiriblər.

Sonda uydurma “erməni soyqırımı” ilə əlaqədar tədbir iştirakçıları adından bəyanatın qəbul olunaraq müvafiq beynəlxalq qurumlara və dövlətlərin parlamentlərinə göndərilməsi qərara alınıb.

# Daha çox şəffaflıq, daha böyük məsuliyyət

Bakı Şəhər İcra Hakimiyyətində aparatın və struktura daxil təsərrüfat xidmətlərinin rəhbərlərinin iştirakı ilə iş forma və metodlarına, eləcə də neqativ hallar və korrupsiya ilə mübarizə məsələlərinə həsr olunmuş geniş müşavirə keçirilib.



Müşavirədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısının apardığı çoxşaxəli islahatların bir çox neqativ halların qarşısını aldığını və müxtəlif sahələrdə şəffaflığın təmin olunduğunu bildirib. O, Prezident İlham Əliyevin dövlət qulluqçuları qarşısında qoyduğu tələblərə toxunaraq bildirib ki, hər bir rəhbər işçi öz fəaliyyətində şəffaflığı təmin etməli, hər hansı korrupsiya hallarına və pozuntulara yol verməməli, dövlət büdcəsindən səmərəli, düzgün istifadə etməli, ən vacibi isə bütün işlərini “təmiz əllərlə” görməlidir.

Şəhər icra hakimiyyətinin başçısı hələ də bəzi neqativ halların mövcud olduğunu qeyd edib, buna qarşı ciddi mübarizə aparılacağını və aşkarlanan faktlar barədə hüquq mühafizə orqanlarına müraciət ediləcəyini bildirib.

Şəhər strukturuna daxil olan xidmətlərin işlərindən danışan Eldar Əzizov bildirib ki, dövlət başçısının Bakının lift təsərrüfatının yenilənməsi ilə bağlı müvafiq sərəncamının icrası məqsədilə Almaniya Federativ Respublikasının “Wittur Holding GMBH” şirkəti ilə müqavilə imzalanmasına hazırlıq gedir. Eldar Əzizov liftlərin qiyməti haqqında ictimaiyyətə konkret məlumat verilməsinin vacibliyini vurğulayıb və bu işdə şəffaflığın təmini üçün gələcəkdə bütün müqavilələrin və alınan malların qiymətlərinin ictimaiyyətə açıqlanacağını bildirib.

Qeyd edək ki, indi alınacaq bir liftin dəyəri 12 min dollara başa gələcək. Əvvəllər isə hətta daha zəif göstəriciləri olan liftlər 25 min dollara alınırmış.

Məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulunda yol verilən bəzi neqativ hallara toxunan icra başçısı bu ilin sonuna kimi bağçalarda elektron qəbul formasına keçiddən sonra bu sahədə də şəffaflığın təmin ediləcəyinə əmin olduğunu vurğulayıb.

Eldar Əzizov paytaxtda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə məlumat verərək paytaxtdakı məhəllələrin təmiri və abadlaşdırılması işlərində çox fəal olduqları və böyük işlər gördükləri üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və onun rəhbəri olduğu IDEA təşkilatına minnətdarlığını bildirib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı yaxın gələcəkdə görüləcək işlər və şəhər təsərrüfatındakı islahatlar barədə də geniş məlumat verib.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

## 25 aprel Sahibkarlar Günüdür



# Sahibkarlığın dinamik inkişafı Prezidentin bu sahəyə xüsusi diqqətinin təzahürüdür

*Əvvəli 1-ci səh.*

Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və may ayında xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, 2002-2005-ci illər üçün Azərbaycanda Sahibkarlığın inkişafı Dövlət Proqramı təsdiq olunmuşdur.

Məhz bu görüşlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında özəl sektorun inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi qeyd edilir.

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev ötən 16 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.

Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökümət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülüb.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı nəzərə alan ölkə Prezidenti milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışır.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar sahibkarlığın inkişafına güclü təkan verir.

Prezident İlham Əliyev öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: “Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz”. Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Dövlət başçısının təbii fəlakət və digər hadisələr nəticəsində zərərçəkmiş sahibkarlara dəymiş ziyanın dəqiq hesablanaraq kompensasiya ödənilməsi, eyni zamanda onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, habelə onların qısa müddətdə işlə təmin edilməsi barədə sərəncamları Azərbaycan sahibkarları və sadə vətəndaşlar arasında böyük rəğbətlə qarşılanmışdır.

Ticarət mərkəzlərində sahibkarların fəaliyyət göstərməsi yeni iş yerlərinin və bununla da iqtisadiyyatda əlavə dəyər yaradılmasına yardımçı olan elementlərdən biridir. Bu prosesdə sahibkar fiskal dövlət gəlirlərinin formalaşmasında iştirak edir. Ona görə də bütün sosial qrupların sahibkarlığa meylinin artırılması məqsədilə ölkə Prezidenti öz çıxışlarında bildirmişdir ki, “Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman sahibkarların yanında olacaqdır”.

2019-cu il Azərbaycan üçün mühüm sosial-iqtisadi islahatların reallaşdığı il kimi tarixə yazılacaq.

Təkcə fevral ayında bunu əsaslandıran amillərə nəzər salsaq görərik ki, Prezident İlham Əliyevin bir ayda imzaladığı 8 sərəncam, 4 fərman ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasını, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsini təmin edib. Bütün bunlar Prezidentin böyük sosial islahatlar paketinin tərkib hissəsinə aid olan məsələlərdir.

“Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” fərman bu sahədə inqilabi yenilikdir. Bu fərman tikinti sahəsində memarlıq amnistiyası hesab olunur.

Dövlət başçısı fevralın 28-də “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən böyük bir narahatlığa son qoyuldu.

Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi birdəfəlik həll edildi. Cənab İlham Əliyev sahibkarlarla bank arasında etimad mühitini bərpa etdi, məhkəmə çəkişmələri sahibkarın xeyrinə həll olundu.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev yeni prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirir. Azərbaycanın əldə etdiyi uğurlar xalqımızın bir il bundan əvvəl keçirilən prezident seçkilərində cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə düzgün mövqe tutduğunu bir daha sübut edir.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilib. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir.

Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Bu il yanvarın 29-da 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev bir daha bu uğurları dəyərləndirdi. Dövlət proqramının icrasının təmin edildiyini vurğulayan dövlət başçısı son 15 il ərzində Azərbaycan iqtisadiyyatının dünya miqyasında rekord templərlə inkişaf etdiyini söylədi. Yalnız bir fakta nəzər yetirək. 15 ildə ümumi daxili məhsulun 3,2 dəfə artması dünya miqyasında rekord göstəricidir. Bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla inkişaf edib. Artan iqtisadi imkanlar dövlətin sosial məsələlərə də böyük diqqət yetirməsinə real imkanlar yaradıb.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

Dövlət proqramlarının icrası nəticəsində bölgələrin siması büsbütün dəyişdi. Regionlarda sənayenin, aqrar sektorun inkişafına təkan verildi. Sənaye parkları, aqroparklar, fabrik və zavodların açılışı vaxtilə işsizlik səbəbindən paytaxta üz tutan insanları yenidən regionlara qaytardı və hazırda həmin müəssisələrdə yüzlərlə insan çalışır.

Növbəti illərdə də regionlarda sahibkarlığın inkişafını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti 29 yanvar 2019-cu il tarixli “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında fərman imzalamışdır.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlər nəticəsində 2004-2018-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4,1 dəfə, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artmışdır. Eyni zamanda, sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 1,9 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmış, ümumilikdə müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 15 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Regionların davamlı inkişafında və əhalinin məşğulluğunda olduqca əhəmiyyətli rol oynayan sahibkarlığın inkişafı üzrə tədbirlər davam etdirilir. Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olunmuşdur. Nəzərə almalıyıq ki, kənd təsərrüfatında ölkə üzrə ümumi daxili məhsulun 5,6 faizi istehsal edilir. Əhalinin 47 faizi kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaratmışdır.

Ümumilikdə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına indiyədək investisiya layihələrinin ümumi dəyəri 5,1 milyard manat olan 35 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 165 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

2019-cu il yanvarın 10-da Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur.

Ölkə Prezidenti iclasda bildirdi ki, “Biz sahibkarlığın inkişafı üçün də əlavə addımlar atmalı, kompleks tədbirlər görməliyik. Bu kompleks tədbirlər apardığımız siyasətin tərkib hissəsidir”.

Prezident İlham Əliyevin dərin islahatlar ili kimi qiymətləndirdiyi 2018-ci ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilib.

Lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılmış, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində verilməsinə başlanılmışdır. Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə bütünlükdə 330 icazə tələb olunurdusa, “Lisenziyalar və icazələr haqqında” qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı 86-ya endirilmişdir.

2018-ci ildə sahibkarlara 2048 lisenziya verilib ki, bunun da 1384-nü yeni, 664-nü isə müddətsiz lisenziyalarla əvəzetmə təşkil edir. Ümumilikdə İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzləri vasitəsilə 2 noyabr 2015-ci ildən 1 yanvar 2019-ci il tarixinədək sahibkarlara 6766 lisenziya verilib. Ötən ilin mart ayında “Lisenziyalar və icazələr” portalı yaradılıb və portal vasitəsilə artıq 587 elektron lisenziya verilib.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunun tətbiqindən sonrakı 38 ay ərzində, vergi yoxlamaları istisna olmaqla, cəmi 640 yoxlama keçirilib. Müqayisə üçün qeyd edək ki, yoxlamaların dayandırıldığı 2015-ci ilin 1 noyabrından əvvəlki 38 ay ərzində sahibkarlıq subyektlərində 185 mindən çox yoxlama keçirilib.

İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu nəzərə alaraq, 2019-cu ilədək sahibkarlara investisiya dəyəri 2,8 milyard manatdan çox olan layihələr üzrə 333 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2188 təsdiqedici sənəd verilib. Layihələrin 41 faizi kənd təsərrüfatı, 59 faizi isə sənaye sahələrini əhatə edir. Bu layihələrin reallaşması nəticəsində 22 minə yaxın iş yerinin açılacağı gözlənilir.

Ötən 2018-ci ildə isə sahibkarlara investisiya dəyəri 801 milyon manat olan layihələr üzrə 107 investisiya təşviqi sənədi təqdim edilmişdir.

Prezident İlham Əliyev tərəfindən ötən il dekabrın 25-də “Sahibkarlara mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında” fərmana edilən dəyişikliklərdən sonra prosedurların sayı 2-yə, elektrik şəbəkəsinə qoşulma müddəti 20 günə endirilib. Hazırda tələbatı 150 kilovata qədər olan fəaliyyət sahəsini elektrik şəbəkəsinə qoşmaq üçün sahibkarın “KOB evləri”, “ASAN Kommunal” və “ASAN xidmət” mərkəzlərinə müraciət etməsi kifayətdir.

Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində hədəf indikatorlardan biri kimi adambaşına qeyri-neft ixracının 2025-ci ildə ən azı 450 ABŞ dollarına çatdırılması müəyyənləşdirilib. Bu, isə azı üç dəfədən çox artım deməkdir.

Qəbul edilən “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nin qarşısında duran vəzifələrdən biri də kiçik və orta sahibkarlığın inkişafı məsələsidir. Əldə edilmiş uğurların davamlılığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Prezidenti “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” fərmana əsasən İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarlığın inkişafı, iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninq, seminar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.



Son illərdə respublikamızda qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, iri infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsi, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaratmışdır. Əldə olunmuş dinamik iqtisadi artımın nəticəsidir ki, Azərbaycanın “yuxarı orta gəlirli” ölkələr sırasında mövqeyi daha da möhkəmlənmişdir.

Ölkədə həyata keçirilən qeyri-neft sektorunun inkişaf konsepsiyasında ilk növbədə hüquqi və fiziki şəxslərin qismində sahibkarların fəal iştirakına geniş meydan verilməsi, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştli kreditlər şəklində verilən maddi dəstəyin ilbəil artırılması və çoxsaylı digər tədbirlər Prezident İlham Əliyevin bu sahəyə diqqətini təsdiqləyən faktların yalnız az bir hissəsidir.

Sahibkarlarımız da öz müəssisələrini müasir tələblərə uyğun qurmalı, ixrac bazarlarında rəqabətqabiliyyətli məhsullar istehsal etməli, xarici bazarlarda mövcud olan geniş imkanlardan faydalanmaq məqsədilə peşəkarlıqlarını artırmalı, ixrac menecerləri cəlb etməlidirlər.

İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədilə ötən il Bakıda və regionlarda 7 konfrans və “dəyirmi masa” təşkil edilib, ticarət qaydalarına əməl olunması ilə bağlı 8 maarifləndirici məlumat 560 mindən artıq elektron ünvana göndərilib, istehlakçı hüquqlarına dair 10 adda 13 mindən artıq buklet və yaddaş kitabçası paylanılıb. Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərdə yaxından iştirak etmiş, tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Azərbaycan hökuməti, Azərbaycan Həmkarlar Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası sosial dialoqun bərabərhüquqlu subyektləri kimi kollektiv müqavilə və sazişlərin bağlanması, onlara əlavə və dəyişikliklər edilməsi və icrasının təmini, bir sıra əmək və sosial-iqtisadi məsələlərin həlli istiqamətində birgə iş aparır.

2018-ci ilin fevral ayında Azərbaycan Respublikası Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında 2018-2019-cu illər üçün sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqeləri və birgə fəaliyyətləri müəyyən edən Baş Kollektiv Saziş imzalanmışdır.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir, yalnız sahibkarlara dəstək verməklə kifayətlənmir, müvafiq dövlət qurumları, həmkarlar ittifaqları ilə əməkdaşlıq çərçivəsində ölkədə əmək münasibətlərinin tənzimlənməsində fəal iştirak edir.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

2019-cu ildə 19 xarici ölkəyə 25 ixrac missiyası həyata keçiriləcək, 11 beynəlxalq sərgidə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə 2018-ci ildə xarici ölkələrdə 5 “Azərbaycan Ticarət Evi” açılıb. Bu il yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində açılan “Azərbaycan Ticarət Evi” ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Bu il Rusiyada, Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində və Qazaxıstanda “Azərbaycan Ticarət Evi”nin açılması nəzərdə tutulur.

2018-ci ildə Çində 2 “Azərbaycan Şərab Evi” açılıb. Xarici ölkələrdə Azərbaycanın şərab evlərinin yaradılması prosesi bu ildə də davam etdiriləcəkdir.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkşafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaşlı işlər aparır.

*Biz Sahibkarlar Konfederasiyası olaraq Azərbaycanda fəaliyyət göstərən bütün sahibkarları bu əlamətdar gün - Sahibkarlar Günü münasibətilə təbrik edir, onlara fəaliyyətlərində uğurlar arzu edirik. İnanıram ki, ölkə sahibkarları dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək xalqımızın rifah halının daha da yüksəlməsi, rəqabətədavamlı istehsal potensialının artırılması üçün öhdələrinə düşən vəzifələri daha məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edəcəklər.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Bütün yollar Azərbaycandan keçir

## İlham Əliyevin regional təşəbbüsləri qlobal layihələrin əsas aktoruna çevrilir

*Əvvəli 1-ci səh.*

İpək yolunun daha da təkmilləşdirilərək və əsaslı korrektələrlə bərpası prosesində TRASEKA ilk qığılcım oldu. Avropa İttifaqının Qərblə Qafqaz və Mərkəzi Asiya ölkələrini yeni nəqliyyat dəhlizində birləşdirmək ideyası kimi təşəkkül tapan təklif 1998-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən konfransla konkret hədəfləri, iştirakçıları və fəaliyyət prinsipləri olan layihəyə çevrildi.

Heydər Əliyev minilliklər boyu mövcud olmuş, amma tarixin sınağından çıxmayan İpək yolunu tam miqyasında olmasa da, böyük coğrafiyada yenidən bərpa etməyə xüsusi əhəmiyyət verirdi. Qonşu dövlətlərin milli nəqliyyat sistemlərinin dünyanın digər ölkələri ilə inteqrasiyasına önəm verən ulu öndərin əsasını qoyduğu yeni nəqliyyat layihələri də məhz bu kontekstdə hazırlanır və TRASEKA hüdudlarını aşacaq hədəflərə uyğunlaşdırılırdı.

### İlham Əliyevdən logistik inhisarçılara müstəqil siyasət de-marşı

Məqsəd Azərbaycanı əsas yolların, dəhlizlərin keçdiyi yeni qlobal logistik mərkəzə çevirmək idi. Bu məramı həyata keçirmək isə Prezident İlham Əliyevə qismət oldu.

Azərbaycan Şimalla Cənubun, Şərq ilə Qərbin qovuşuğunda yerləşir, Asiya və Avropa qitələri arasında körpü rolunu oynayır və coğrafi mövqe üstünlüyünə malik olduğundan effektiv nəqliyyat marşrutuna çevrilmək şansı da yüksək idi. Amma etiraf edək, belə coğrafi mövqeyə sahib, - özü də bizdən daha əlverişli, - ölkələr çoxdur, ancaq onlar bu gün Azərbaycanın bu yönümdəki real fəaliyyət nəticələrinə sahib deyillər.

Ölkəmizin bu sahədəki nailiyyətləri məhz genişprofilli infrastuktur şəbəkəsinin yaradılması, onun lokal və qlobal nəqliyyat marşrutlarının tərkib hissəsinə çevrilməsi, böyük rəqabət mühitində tərəfdaşların tapılması və saylarının davamlı artırılması kimi məqamlar sayəsində əldə olunub.

Bir vacib nüansı da unutmayaq. Ölkəmizin müəllifi olduğu nəqliyyat layihələri yalnız iqtisadi mənfəət vasitəsi deyil, bu, həm də milli dövlətçiliyi inkişaf etdirən, gücləndirən vacib siyasi amildir.

Bu, İlham Əliyevin timsalında Azərbaycanın dünyada əsas logistik inhisarçılara, fövqəldövlətlərə müstəqil siyasət de-marşıdır!

2013-cü ildə Çinin dövlət başçısı Si Cinpin "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasını elan etməsi demək olar ki, bütün dünyanı uzun dövr müzakirə olunan çoxsaylı plan və layihələri artıq konkret məcrada nəzərdən keçirməyə səfərbər etdi. ABŞ və onun bəzi müttəfiqlərinin ilk gündən maneə yaratmağa çalışdığı bu təşəbbüsə onlarla dövlət dərhal dəstəyini ifadə etdi. Onların öncülləri sırasında Azərbaycan da (özü də Qafqazda ilk olaraq) var idi, ən əsası isə İlham Əliyev bu layihəni ölkəmiz üçün yeni fürsətə çevirməyə müvəffəq oldu.

### Azərbaycan "Bir kəmər, bir yol"un əsas mərkəzlərindən olacaq

Çin "Bir kəmər, bir yol" vasitəsilə Avrasiya və Afrika ölkələri, qədim İpək yolu üzərində yerləşən dövlətlər arasında qarşılıqlı əlaqələrin və ticari-iqtisadi əməkdaşlığın inkişafını, malların güzəştli şərtlərlə Şərqdən Qərbə göndərilməsi üçün ticarət dəhlizlərinin yaradılmasını təklif edir. Həmçinin "İpək Yolu İqtisadi Kəməri", "Dəniz İpək Yolu" adlanan iki mühüm inkişaf istiqaməti üzrə müvafiq infrastruktur formalaşdırılmasına yönələn strategiyaya əsaslanır.

İlham Əliyevin bu prosesdə öncül mövqeyini təmin edən amil yalnız onun səmimi dəstəkçi olması deyil, həm də layihənin gerçəkləşməsi üçün təklif etdiyi bütöv logistik sistemdir. Yəni dəmir, dəniz, avtomobil yollarından ən müasir liman və portlaradək hazır olan böyük və çevik nəqliyyat şəbəkəsi, yükdaşımanın təhlükəsiz marşrutu, mənfəətli təkliflər və digər bu kimi imkanlar həm "Bir kəmər, bir yol" üçün hazır varianta çevrilir, həm də Azərbaycanın indidən digər seçimlər arasında üstünlüyünü təmin edir.

Prezident İlham Əliyev 2015-ci ilin dekabrında Çinə səfərində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb. Bu rəsmi münasibətin ardınca müxtəlif tədbirlərdə, konfranslarda layihəyə açıq dəstəyini ifadə edən dövlət başçısı elə cari ilin yanvarında Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiyanın əsas qonaqlarından olub və bu təşəbbüs barədə fikirlərini beynəlxalq ictimaiyyətə çatdırıb.

İlham Əliyev bu gün Pekində keçirilən ikinci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirakı ilə mövqeyinin dəyişməzliyini və yeni təkliflərini bəyan etdi. Keçirdiyi çoxsaylı görüşlərdə, etdiyi çıxışlarda ümumilikdə Azərbaycanın yeni iqtisadi-sosial siyasətinin əsas məqamları, son islahatlar paketi barədə məlumat verən Prezident ölkəmizin etibarlı və səmərəli tərəfdaş imicini daha da möhkəmləndirdi.

Çinli mütəxəssislər, həmçinin beynəlxalq ekspertlər hesab edirlər ki, "Bir kəmər, bir yol" strategiyasının həyata keçirilməsində Azərbaycan logistika mərkəzi, qovşaq və körpü rolunu oynayacaq. Avropa ilə Asiya arasında ən qısa dəmir yolu əlaqəsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu, habelə Şimal-Cənub kimi böyük nəqliyyat layihələri, Ələt Beynəlxalq Dəniz Limanı bu layihədə əhəmiyyətli rola malik olacaq.

*Göründüyü kimi, İlham Əliyevin regional geosiyasi təşəbbüsləri miqyasca davamlı olaraq böyüyür və qlobal geoiqtisadi layihələrin əsas aktoruna çevrilir.*

*Və bütün yollar indi Azərbaycandan keçir...*

***İxtiyar HÜSEYNLİ, "Azərbaycan"***

◆ Milli qəhrəmanlarımız

Albert Aqarunov 25 aprel 1969-cu ildə Bakı şəhərində anadan olub. Suraxanı rayonundakı 154 saylı məktəbin 8-ci sinfini bitirərək peşə məktəbində sürücü-mexanikliyə yiyələnib. 1987-ci ildə hərbi xidmətə çağırılan Albert xidməti vəzifəsini Gürcüstanda yerinə yetirir və tank komandiri olur. Daha sonra Bakıya dönərək Suraxanı Maşınqayırma Zavodunda işləyir. Qarabağ müharibəsi başlayarkən 1992-ci ildə Albert Aqarunov könüllü olaraq cəbhəyə gedir. Albert tank komandiri təyin edilir və Şuşa cəbhəsinə yollanır. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edir.

8 may 1992-ci ildə Şuşa uğrunda döyüşlərdə qəhrəmanlıqla şəhid olur. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülür.




# Azərbaycan oğluyam...

*Əvvəli 1-ci səh.*

Onun üçün öncə vətən gəlirdi, hər şeydən öncə...

Doğulduğu, böyüyüb boya-başa çatdığı doğma torpaq idi onun amallarının istinadgahı...

Müharibənin ən şiddətli vaxtlarında o da Azərbaycanı tərk edib gedə bilərdi, var idi belə bir şansı...

İsraildə yaşayan anasının yalvarışları, atasının təkidlərinə baxmayaraq, tərk etməmişdi bu yurdu...

Demişdi ki, inşallah, müharibə qurtarar, mən də gələrəm sizin yanınıza...

O, Azərbaycanı seçmişdi...

Bu vətəndən kənarda uzun ömür yaşamaqdansa onun uğrunda canını qurban verib elə bu torpağın zərrəsinə, misqalına çevrilməyi seçmişdi...

Müqəddəsləşməyi, şəhid olmağı seçmişdi...

Və bir daha müasir dünyanın yeni vətən stereotiplərini vurub dağıdaraq sübut etmişdi ki, torpaq əgər uğrunda ölən varsa, vətəndir...

### Sağlığında əfsanəyə çevrilən qəhrəman

Albert elə sağlığında ikən əfsanəyə çevrilmişdi. Hətta onun haqqında deyirdilər ki, "Albert bir mərmi ilə iki düşmən tankı vurur..."

1991-ci ilin oktyabrında yeni yaranan "Səbail" tank taboruna yazılan könüllülər arasında 22 yaşlı Albert Aqarunov da var idi. Taborda yalnız 3 tank var idi və 533, 534, 535-ci heyətlər bölüşdürülərkən Albert 534-cü ekipaja düşür, amma o, israrla 533-ü istəyir. Səbəbini soruşanda isə komandirinə deyir ki, 533 yəhudilərin uğurlu rəqəmidir...

Beləliklə, 1992-ci ilin aprelində Albert Aqarunovun da olduğu həmin üç tank Şuşaya göndərilir. "Səbail" tank taborunun komandiri Hacı Əzimov söhbətimizdə o günləri belə xatırlayır: "Şuşada bizim texnika az idi. 7 BMP-miz var idi ki, onlardan da yalnız 4-ü işləyirdi, bir də bizim 3 tankımız. Tanklarla Daşaltı və Şuşa-Laçın yollarını qoruyurduq ki, ermənilər o yolu ala bilməsinlər və əhali rahat gedib-gələ bilsin. Mayın 8-nə qədər yolları qoruduq. T-72 tankları mürəkkəb idi. Albert öz əsgər yoldaşlarına da bu tankdan istifadə üsullarını öyrədirdi. Onun tank döyüşündə bir metodu vardı ki, yoldaşları ona "yəhudi buterbrodu" deyirdilər. Erməni zirehli texnikası bir-birinə yaxınlaşandan sonra bir top mərmisi ilə iki texnikanı məhv etməsinə belə bir bənzətmə vermişdilər. Şuşaya hücum ediləndə 9 tank, 7 BMP və bir çox texnikanı məhv etmişdi. Ermənilər onun başına pul mükafatı qoymuşdular".

"Mayın 8-i səhər tezdən 6:05 radələrində ermənilər ağır artilleriya ilə Şuşanı bombardman etməyə başladılar. O zaman bizim hərbçilər 3 tank, 4 BMP, 245 nəfər xüsusi təyinatlı 777-ci alay və 40 nəfərlik Şuşa özünümüdafiə batalyonu ilə döyüş bölgəsinə yollandılar. Halbuki hücuma keçən 366-cı polk idi. Həmin polkun tərkibində 30 tank, 2 BMP, 2 artdivizion, 3 artilleriya divizionu, yəni hava hücumundan qoruyan divizionlar, 10 min nəfər həmin polkun şəxsi heyəti vardı və 5 min erməni onlara qoşularaq Şuşaya hücum etmişdilər" deyir Hacı Əzimov...

### Erməni bayrağının acı aqibəti

Şuşaya ilk girməyə cəhd edən erməni tankına "flaqman tank" kimi şəhərə asılmalı olan "fəxri" erməni bayrağı verilmişdi. Bu tankın komandiri Qagik Avşaryan idi. Lakin Avşaryanın 442 nömrəli tankı Şuşaya girməyə cəhd elədiyi anda Albert Aqarunovun 533 nömrəli tankı tərəfindən vurulur. Tankın komandiri Qagik Avşaryan, sürücü-mexanik Aşot Avanesyan, atıcı-artillerist Şahen Sarkisyan elə ilk atəşdən maşının kabinəsində məhv edilir. Ermənilər Birinci Qarabağ müharibəsindən sonra Avşaryanın yanmış T-72 tankını bərpa edib, tünd yaşıl rəngə boyayıb, 442 nömrəsini ağ rənglə gövdəsində yazıb və təpənin başında Şuşaya tuşlanmış vəziyyətdə qoyublar...

Qüvvələrimiz 18 saatlıq Şuşa döyüşündən sonra mülki əhalini və lazımi malları çıxararaq, gecə saat 23 radələrində yavaş-yavaş şəhəri tərk etməyə başlayır. Onlar Laçının Turşsuyunda mövqe tuturlar ki, kömək gəlsin və yenidən Şuşaya qayıda bilsinlər...

...Amma nə sirdirsə, gözlənilən kömək gəlib çıxmır. Nə Şuşanın, nə Laçının, nə Kəlbəcərin, nə Ağdamın, nə də digər rayonlarımızın bir-birinin ardınca işğalı zamanı...

### Namərd gülləsi

Mayın 8-də döyüş daha da şiddətlənmişdi. Albert və ekipaj üzvləri dayanmadan vuruşur, düşmənə göz açmağa imkan vermirdilər. Onlar yaralıları döyüş bölgəsindən uzaqlaşdırır, yenidən mərmi yığaraq döyüşə atılırdılar. Albert sonuncu dəfə tankdan çıxaraq yaralılara kömək etmək istəyərkən snayper gülləsi ilə vurulur...

Əsgər yoldaşları yaralı Alberti döyüş bölgəsindən çıxararaq Laçına aparırlar ki, vertolyotla təcili Bakıya çatdırsınlar. Amma ölüm onu vertolyota çatmamış haqlayır və yoldaca keçinir...

Albertin şəhidlik xəbərini atasına komandiri Hacı Əzimov verir: "Atasının yanına gedərək dedim ki, oğlunuz qəhrəmancasına şəhid olub. Siz necə istəyirsiniz, onu harada basdıraq? Dedi ki, azərbaycanlı şəhid balalarının dəfn olunduğu yerdə basdırın. O, Azərbaycan torpağının övladıdır..."

Şəhidlər xiyabanında al-qırmızıya bürünmüş bir məzar...

Bu məzara öz canını vətən uğrunda fəda edən qəhrəman bir gənc əmanət edilir...

Məzarın başı üzərində isə əli Quranlı bir molla və əli Tövratlı bir ravvin eyni anda onun ruhuna dua edirdilər...

### Albertdən sonra...

"Azərbaycan torpağını qorumaq bizim müqəddəs borcumuzdur". İndi bu sözlər Albert Aqarunovun xatirə medalının üzərinə yazılıb.

Həmin medal Milli Qəhrəmanın anadan olan gündə - yəni bu gün Şəhidlər xiyabanında bütün silahdaşlarına paylanacaq.

Aprelin 30-da isə Muğam Mərkəzində Albert Aqarunovun 50 illik yubileyi qeyd ediləcək. Mərkəzin foyesində onun xatirəsinə həsr olunmuş "Qarabağa qayıdış arzuları ilə" adlı rəsm sərgisi açılacaq.

Qeyd edək ki, Bakı şəhərində yeni küçələrdən biri Albert Aqarunovun adını daşıyır və bu yaxınlarda həmin küçədə Milli Qəhrəmanın büstünün ucaldılması nəzərdə tutulur. Büstü heykəltəraş Ömər Eldarov və memar Elbay Qasımzadə hazırlayır. Qeyd edək ki, qoyulacaq büstün maliyyəsini Azərbaycan dövləti öz üzərinə götürüb.

Bununla yanaşı, Albert Aqarunovun vaxtilə oxuduğu Suraxanıdakı 154 saylı məktəbə onun adı verilib, yaşadığı evin üzərində barelyefi var, həmçinin Qubanın Qırmızı Qəsəbəsində adına küçə verilib.

Hər ilin iyun ayında Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Albert Aqarunovun xatirəsinə həsr olunmuş beynəlxalq karate yarışları keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli fərmanı ilə Albert Aqarunov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

"Dostuma məktub" bədii və "Yaşadığım torpaq" sənədli filmi çəkilib, şərəfinə mahnılar bəstələnib, şeirlər yazılıb...

"Azərbaycanda 200-dən çox Milli Qəhrəman var, Albert də onlardan biridir. Bizim məqsədimiz odur ki, Alberti Milli Qəhrəman səviyyəsində ana bilək. Bu isə yalnız Azərbaycanda mümkündür. Belə yüksək dəyər ancaq Azərbaycan tolerantlığında, multikultural mühitində ola bilər". Bu sözləri isə Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev deyir.

### Həzi Aslanovdan Albert Aqarunova ötürülən qəhrəmanlıq salnaməsi

Bu torpağın suyundan içən hər bir gəncin damarlarından qəhrəman qanı axır.

Hər birimizin tərəddüd etmədən uğrunda şəhid olacağımız tək bir vətənimiz var, can Azərbaycanımız...

Bu gün Azərbaycan Hərb Tarixi Muzeyinin həyətində qoşa tank dayanıb. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun idarə etdiyi 17 nömrəli tank və Azərbaycanın Milli Qəhrəmanı, tank komandiri Albert Aqarunovun idarə etdiyi 533 nömrəli tank...

*Hər ikisinin də lüləyi Qarabağımıza yara kimi yapışmış düşmənə tərəf tuşlanıb...*

*Və o gün gec deyil ki, Şuşaya sancılacaq üçrəngli, ay-ulduzlu bayrağımızı məhz həmin tanklar daşıyacaq...*

*Həzi Aslanov, Albert Aqarunov kimi qəhrəmanlarımızın ruhunun davamçısı igidlərimizin idarəçiliyində...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycan-Türkiyə birgə taktiki təlimlərində istifadə ediləcək silahlara, hərbi və xüsusi texnikaya baxış keçirilib

Mayın 1-dən 3-dək ölkəmizdə keçiriləcək "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə taktiki təlimlərində istifadə olunacaq silah, hərbi və xüsusi texnika nümunələrinə baxış keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təcrübəli mütəxəssislər tərəfindən şəxsi heyətə hərbi texnikaların istismarı, tətbiqi, döyüş və digər imkanları barədə məlumatlar çatdırılıb.

Qeyd edək ki, iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən birgə təlimlərdə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edəcək.

# Azərbaycanın hərbi məhsulları beynəlxalq sərgidə nümayiş etdiriləcək

Türkiyə Respublikası Prezidentinin himayədarlığı ilə iki ildən bir İstanbulda keçirilən "IDEF" Beynəlxalq Müdafiə Sənayesi sərgisi Avropanın ən böyük sərgilərindəndir. Sərgiyə dünyanın aparıcı müdafiə sənayesi şirkətləri qatılaraq öz məhsul və xidmətlərini təqdim edirlər. Sərgi müxtəlif xarici rəsmi heyətlərin iştirak etdiyi əhəmiyyətli platformalardan biri hesab olunur.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi 2009-cu ildən belə mötəbər sərgilərdə mütəmadi olaraq iştirak edir və məhsullarını nümayiş etdirir. Aprelin 30-dan mayın 3-dək keçiriləcək "IDEF-2019" XIV Beynəlxalq Müdafiə Sənayesi sərgisində MSN-in məhsullarının nümayişi məqsədilə nazir müavini Yəhya Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə səfərdə olacaq. Bu barədə AZƏRTAC-a Müdafiə Sənayesi nazirliyindən məlumat verilib.

Qeyd edək ki, müdafiə təyinatlı məhsulların ixracı ölkəmizin qeyri-neft sənaye məhsulları ixracında əhəmiyyətli istiqamətlərdən biri olduğundan MSN tərəfindən təsdiq edilmiş tədbirlər planına uyğun olaraq, nazirliyin 2019-cu ildə müxtəlif beynəlxalq sərgilərdə iştirakı nəzərdə tutulur.

"IDEF-2019" Beynəlxalq Müdafiə Sənayesi sərgisində Azərbaycanın milli pavilyonunda MSN-in müəssisələrində istehsal olunan əsas ixracyönümlü məhsulların nümayişi təşkil ediləcək. Eyni zamanda, sərgidə xarici ölkələrlə hərbi-texniki sahədə əlaqələrin inkişaf etdirilməsi və yeni birgə layihələrin reallaşdırılması istiqamətində müzakirələr aparılacaq.

Sərgi çərçivəsində Y.Musayevin Türkiyənin dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkət nümayəndələri ilə görüşləri də nəzərdə tutulur.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Aprelin 24-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Ağcabədidə bu rayondan, həmçinin Ağdam, Tərtər və Laçından olan vətəndaşları qəbul edib.

Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının inzibati binasında keçirilən qəbulda vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Vətəndaşlar dövlət komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

* * *

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Əhməd Əhmədzadə aprelin 24-də Bərdə şəhərində vətəndaşlarla görüşüb.

Bərdə Suvarma Sistemləri İdarəsinin inzibati binasında keçirilən qəbulda Bərdə rayonu ilə yanaşı, Ağdam, Tərtər və Yevlaxdan olan vətəndaşların da müraciətləri dinlənilib. Müraciətlər əsasən suvarma suyundan əziyyət çəkən fermerlərin su təchizatının yaxşılaşdırılması, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının qurulması və təmiri, suvarma kanallarının lildən təmizlənməsi kimi məsələlərlə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə tərəfindən diqqətlə dinlənilib, qaldırılan məsələlərin bir qismi elə yerində öz həllini tapıb, digər müraciətlər üzrə ASC-nin məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

***AZƏRTAC***

# Ə.Kərimli antimilli mövqeyini bir daha nümayiş etdirdi

Dünyada yüz milyonlarla izləyici auditoriyasına malik olan "Formula-1" yarışlarının həyəcanı növbəti dəfə Azərbaycanda yaşanır. Artıq sabahdan Bakıda yarışın Azərbaycan Qran-prisi start götürəcək. Beləliklə, 3 gün ərzində dünyanın diqqəti yenidən ölkəmizə yönələcək, avtomobil idmanı həvəskarlarının nəbzi Bakı ilə döyünəcək.

Xatırladaq ki, ölkəmiz dördüncü dəfədir ki, bu mötəbər avtomobil yarışına evsahibliyi edir. Azərbaycanın infrastrukturu istənilən mötəbər idman tədbirini keçiməyə imkan verir. Buna misal olaraq indiyədək Bakıda keçirilmiş beynəlxalq yarışları göstərmək olar. Təbii ki, "Formula-1" yarışları da daxil olmaqla, bu cür idman tədbirləri son illərdə ölkəmizə böyük faydalar gətirib. Belə ki, Azərbaycana gələn turistlərin sayının dəfələrlə artmasının əsas səbəblərindən biri məhz bu cür tədbirlərdir. Bu idman yarışları həm də ölkəmizin, Bakının təbliği, dünyada tanıdılması deməkdir. Artıq Azərbaycanın turizmdən gəlirləri milyardlarla manat həcmində ölçülür ki, bu da beynəlxalq tədbirlərin ölkəmizə gətirdiyi olduqca mühüm dividenddir. Eyni zamanda hər bir beynəlxalq tədbir respublikamızın dünyadakı nüfuzunun da yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir edən faktordu.

Təəssüf ki, cəmiyyətimizdə bu uğurlara görə sevinməyən və onları görməzliyə vuranlar da tapılır. Belə ki, ağa qara deməyə vərdiş etmiş və əsl müxalifətçilik missiyasını tamamilə unudan AXCP sədri Əli Kərimli sosial şəbəkələrdəki açıqlamalarında yenə də xislətinə uyğun olaraq "Formula-1" yarışının Bakıda keçirilməsinə qara yaxmağa çalışıb.

Ə.Kərimli tərəfindən belə bir qərəzli açıqlamanın verilməsi ilk dəfə deyil və ona görə də başadüşüləndir. Çünki bu adam vətəndaşlar tərəfindən hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra müxalifətçilik adı altında əslində dövlətinə və xalqına qarşı fəaliyyət göstərməyə başlayıb. O, antiazərbaycançı şəbəkənin "beşinci kolon"u funksiyasını yerinə yetirməyə başlayıb. Ə.Kərimli daim onlardan aldığı təlimatlar əsasında Azərbaycanın maraqlarına zidd əməllərlə məşğul olub.

Antiazərbaycançı şəbəkə isə xüsusən Azərbaycanda beynəlxalq tədbirlər ərəfəsində, o cümlədən respublikamız növbəti uğura imza atanda fəallaşır. Bu mənada "Formula-1" yarışlarının başlanması ərəfəsində də ölkəmizə qarşı qarayaxma kampaniyasının işə salınması gözlənilən idi və Ə. Kərimli bu dəfə də öz antimilli missiyasına sadiq qaldı.

Hesablamalara görə, təkcə ilk iki yarış ölkə iqtisadiyyatına 277.3 milyon dollar gəlir gətirib. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində 113 daimi işçi çalışır. Yarışlar yaxınlaşdıqca işə cəlb olunanların sayı artır və təxminən min nəfəri ötür. Bu yarış Azərbaycanla könüllülük hərəkatının inkişafına da böyük töhfələr verir. Belə ki, Bakıda ilk "Formula-1"in keçirildiyi 2016-cı ildə 5 min, sonrakı illərdə isə 3 min könüllü yarışa cəlb edilib.

Göründüyü kimi, bu yarışın Bakıda keçirilməsi Azərbaycana hərtərəfli fayda gətirir. Ölkəyə valyuta gəlir, vətəndaşlar işlə təmin olunur, gənclər ictimai faydalı fəaliyyətə cəlb edilir, o cümlədən Azərbaycanın şöhrəti yüksəlir. Vətəndaşlar bu uğuru görür və haqlı olaraq yüksək qiymətləndirirlər. Bunu həzm edə bilməyənlər isə antiazərbaycançı şəbəkə və onların Ə.Kərimlinin timsalında Azərbaycanda olan əlaltılarıdır. Beləliklə, Ə.Kərimli və onun ruporu olduğu antiazərbaycançı şəbəkə yenə də narahatdır. Onlara narahatlıq verən isə öz yolu ilə inamla addımlayan, inkişaf edən müstəqil Azərbaycandır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların niyyətlərini gözündə qoyub.

Antiazərbaycançı şəbəkənin sifarişlərini yerinə yetirən Ə.Kərimli isə antimilli xislətini növbəti dəfə nümayiş etdirdi. Bir daha göstərdi ki, onun bütün fəaliyyəti Azərbaycan dövlətinə və onun siyasi- iqtisadi maraqlarına qarşı yönəlib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Yaponiyanın Azərbaycandakı səfiri “Azərenerji” ASC-də olub



Baba Rzayevin başçılıq etdiyi “Azərenerji” ASC-nin nümayəndə heyəti ilə Yaponiya dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Teruyuki Katorinin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş olub.

“TEPSCO” şirkətinin Baş direktoru Funahashi Nobuyuki və həmin şirkətin Bakıda inşa edilən “Şimal-2” layihəsinin meneceri Sato Mitsuyuki və başqa nümayəndələrin iştirak etdiyi görüşdə əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri, o cümlədən yeni generasiya layihələri barədə müzakirələr aparılıb.

***“Azərbaycan”***

## *Fransa hökumətinin məsləhətçisi:*

# “Azərbaycanda dini icmalar arasındakı qardaşlıq münasibətləri böyük dəyərdir”

Aprelin 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Fransa hökumətinin Azərbaycanda səfərdə olan dini işlər üzrə məsləhətçisi Jan-Kristof Paskal ilə görüşüb.



QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, A.Paşazadə bu yaxınlarda Parisin Notr-Dam kilsəsində baş vermiş yanğından təəssüf hissi keçirdiyini, bu məşhur və möhtəşəm tarixi abidənin tezliklə bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan dindarları bu işə maddi və mənəvi dəstək verməyə hazırdırlar.

QMİ sədri Azərbaycan dövlətinin beynəlxalq müstəvidə dinlərarası və sivilizasiyalararası əməkdaşlıq prosesinə verdiyi əməli töhfələrdən bəhs edib. Multikulturalizmin ölkəmizdə dövlət siyasəti olduğunu bildirən Şeyxülislam Allahşükür Paşazadə dövlət başçısının bu istiqamətdə ardıcıl siyasi iradə nümayiş etdirdiyini, qlobal əhəmiyyətli multikulturalizm və həmrəylik ideyalarını irəli sürdüyünü xüsusi qeyd edib. A.Paşazadə 2017-ci ilin sonunda QMİ-nin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin də bu mərama xidmət etdiyini vurğulayıb.

Azərbaycanın multikultural dövlət modelinin beynəlxalq aləmdə tanıdılmasına xidmət edən və dünyanın bir çox dövlətlərində keçirilmiş beynəlxalq konfranslar barədə məlumat verən QMİ sədri bu xüsusda iyun ayında Avstriyanın paytaxtı Vyanada keçiriləcək, Fransa təmsilçilərinin də qatılacağı növbəti beynəlxalq forumdan bəhs edib.

A.Paşazadə bildirib ki, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsinin aparılması üçün ənənəvi məkana çevrilən Azərbaycan sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin formalaşdırılması işinə böyük töhfələr verməkdədir. Azərbaycan Prezidentinin sərəncamı ilə bu il noyabrın 14-15-də “Dünya dini liderlərinin II Bakı sammiti” keçiriləcək. Şeyxülislam 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş ilk sammitinin davamı olacaq bu tədbirin qloballaşan dünyanın müasir çağırışlarının, aktual problemlərinin həllinə Azərbaycan dövlətinin daha bir dəyərli töhfəsi olacağına ümidvar olduğunu bildirib.

Bakıya ilk dəfə 1998-ci ildə səfər etdiyini xatırladan fransalı qonaq ötən müddət ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini bildirib. Azərbaycandakı dini icmalar arasında müşahidə etdiyi səmimi qardaşlıq münasibətlərinin böyük dəyər olduğunu bildirib.

Görüşdə Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez də iştirak edib.




## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə

## *açıq tender elan edir*

**LOT 1:** Dəftərxana ləvazimatlarının satın alınması;
**LOT 2:** Təsərrüfat mallarının satın alınması;
**LOT 3:** Ümumi havalandırma qurğuları (AHU və Fan coil) üçün sərfiyyat mallarının satın alınması;
**LOT 4:** Mətbəə işlərinin satın alınması;
**LOT 5:** RSA və Cisco sistemlərinin lisenziyalarının 1 il müddətinə uzadılması;
**LOT 6:** İnzibati binada quraşdırılmış yanğınsöndürmə sistemləri və avadanlıqlarına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 7:** Yanğınsöndürmə qurğularına (FM 200) texniki xidmətin satın alınması;
**LOT 8:** Yanğından mühafizə sistemlərinə və qurğularına texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 9:** Kəsintisiz güc mənbələrinə (UPS) texniki xidmətin satın alınması;
**LOT 10:** Ümumi soyutma qurğularına (Chiller) texniki xidmətin satın alınması;
**LOT 11:** Generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 12:** Fasad təmizləmə qurğularına texniki xidmətin satın alınması;
**LOT 13:** Serverlər üçün soyutma qurğularına (Cracks) texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 14:** Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 15:** Su nasoslarına texniki xidmətin satın alınması;
**LOT 16:** Qazanlara (Boiler) texniki xidmətin satın alınması;
**LOT 17:** Mühəndis-texniki avadanlıqlara texniki xidmətin satın alınması.

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla http://www.oilfund.az ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **14 iyun 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-in yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:
- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- tender təklifi (tender təklifi qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə).

Podratçılardan tələb olunan sənədlər (tender təklifi və təklifin təminatı istisna olmaqla) **31 may 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri (təklifin təminatı ilə birlikdə) isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **13 iyun 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında yerləşən ARDNF-ə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İştirak haqqı LOT 1, LOT 2, LOT 3, LOT 4, LOT 6, LOT 7, LOT 9, LOT 10, LOT 11, LOT 12, LOT 13, LOT 14, LOT 15, LOT 16 və LOT 17 üzrə 50 (əlli) manat, LOT 5 və LOT 8 üzrə isə 100 (bir yüz) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikası Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular TSK2019@oilfund.az ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+99412) 498-77-53, əlaqələndirici şəxslər: LOT 4 üzrə Aynur Səmədova (dax.: 6006), LOT 5 üzrə Nailə Məmmədli (dax.: 9005), LOT 1, LOT 2, LOT 3, LOT 6, LOT 7, LOT 8, LOT 9, LOT 10, LOT 11, LOT 12, LOT 13, LOT 14, LOT 15, LOT 16 və LOT 17 üzrə Elşad Bağırov (dax.: 1010), hüquqi məsələlər üzrə Kəmalə Rəhimova (dax.: 8023).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikası Baş Prokurorluğunda 22 aprel 2019-cu ildə inventarların, mal-materialların, avadanlıqların satın alınması məqsədilə keçirilən açıq tenderin nəticələrinə görə aşağıdakı hüquqi şəxslər qalib elan olunmuş, onlarla müvafiq müqavilələr bağlanmışdır:***

**LOT-1.** Dəftərxana ləvazimatlarının satın alınması: “Office Page” MMC
**LOT-2.** Təsərrüfat mallarının satın alınması: “Sistems Control Safety” MMC
**LOT-3.** Ofis və kabinet mebellərinin satın alınması: “Qardaşlar Mebel-3” MMC
**LOT-4.** Avadanlıqların satın alınması: “Ultra Technologies” MMC
**LOT-5.** Tikinti materiallarının satın alınması: **Tender baş tutmamışdır.**
**LOT-6.** Katriclərin satın alınması : “Caspian Surrlies AZE” MMC
**LOT-7.** Geyim formasının satın alınması: “ Monolit” MMC

***Tender komissiyası***

# Əhalinin sosial müdafiəsi gücləndirilir

*Əvvəli 1-ci səh.*

Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə ilk növbədə vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına.

Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi. Burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar”.

Dövlət başçısının da qeyd etdiyi kimi, ölkədə həyata keçirilən iqtisadi islahatlar, maliyyə intizamının sərtləşdirilməsi birinci rübdə ölkənin gəlirlərinin artmasını təmin edib. Maliyyə Nazirliyi tərəfindən verilən məlumata görə, cari ilin birinci rübündə dövlət büdcəsinin mədaxili 5 milyard 439,7 milyon, xərcləri 5 milyard 35,9 milyon manat olub ki, nəticədə dövlət büdcəsində 403,8 milyon məbləğində profsit yaranıb. Məlumatda o da bildirilir ki, birinci rübdə dövlət büdcəsinin mədaxili 5 milyard 439,7 milyon manat və ya 99,1 faizi icra olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 876,3 milyon manat çoxdur.

Hesabat dövründə Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 1 milyard 672,9 milyon manat vəsaitin ödənilməsi təmin edilib. Bu isə keçən ilin müvafiq dövründəkindən 236,4 milyon manat artıqdır. Önəmli fakt odur ki, həmin vəsaitin 1 milyard 155,4 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür. Sözsüz ki, bu, dövlət tərəfindən qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən uğurlu siyasətin nəticəsidir.

Həmin dövrdə Dövlət Gömrük Komitəsi tərəfindən dövlət büdcəsinə 1 milyard 14,1 milyon manat vəsaitin daxil edilməsi təmin olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 287,1 milyon manat yüksəkdir.

Hesabat dövründə dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 100,4 faiz və ya 5 milyard 35,9 milyon manat icra edilib. Bu isə ötən ilin eyni dövrünə nisbətən 627,9 milyon manat və ya 14,2 faiz çoxdur. Qeyd edildiyi kimi, gəlirlər artdıqca əhalinin sosial müdafiəsinin gücləndirilməsinə daha çox vəsait xərclənir. Məsələn, təkcə cari ilin birinci rübündə dövlət büdcəsi xərclərinin 41,8 faizi və ya 2 milyard 104,5 milyon manatı sosialyönümlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 19,5 faiz çoxdur.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Leyla Abdullayeva Ermənistan XİN-in mətbuat katibinin şərhinə münasibət bildirib

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi öz şərhində Avropa İttifaqının (Aİ) Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı mövqeyinin Ermənistan-Avropa İttifaqı hərtərəfli və genişləndirilmiş tərəfdaşlığı haqqında sazişində aydın ifadə olunduğunu və orada digər prinsiplərlə yanaşı, öz müqəddəratını təyinetmə prinsipinə də istinad edildiyini bildirib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bu məsələyə münasibət bildirərək deyib: “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin Aİ-Ermənistan sazişində necə əks olunmasının detallarına varmadan mən yalnız onu söyləyə bilərəm ki, bu bəyanat münaqişədə məhz iki tərəfin, yəni Ermənistan və Azərbaycanın mövcudluğunu, heç bir “üçüncü tərəf”in olmaması barədə həqiqətin dəyişilməzliyini növbəti dəfə sübut edir”.




Mötəbər idman yarışlarına evsahibliyi etmək hər bir ölkənin, o cümlədən şəhərin arzusudur. Amma hər ölkənin bütün dünyanın izlədiyi, sayı minlərlə ölçülən idmançıların iştirak etdiyi tədbiri təşkil etməyə, birdən-birə on minlərlə turisti qarşılamağa imkanı çatmır. Hətta bir çox inkişaf etmiş ölkələr belə bu baxımdan müəyyən tələblərə cavab vermir. Bu da təbiidir. Çünki qlobal miqyaslı idman tədbirinə evsahibliyi üçün kompleks və beynəlxalq standartlara cavab verən infrastruktur olmalıdır.
Azərbaycan bu baxımdan örnək sayılacaq ölkələrdən biridir. Çünki respublikamızda ilk növbədə ən müasir tələblərə cavab verən idman infrastrukturu və yarışların təşkili üçün təcrübə formalaşıb.

# Sürət, həyəcan və möhtəşəm Bakı

## Azərbaycan növbəti dəfə dünyanın idman mərkəzinə çevrilir





### "Formula-1"in Azərbaycan modeli

Sabah start götürəcək və ölkəmizin sayca 4-cü dəfə evsahibliyi edəcəyi "Formula-1"in də artıq dünyada Azərbaycan modeli yaranıb. Məlumdur ki, beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malikdir. Təşkilatçılıq, təhlükəsizlik, iqtisadi və kommunikasiya imkanları hər zaman həlledici rola malikdir. Bir çox ölkələr beynəlxalq tədbirlərə evsahibliyi etmək üçün rəqabət aparır, yarış və tədbirlərin ev sahibləri illər öncə belə müəyyən olunur.

Bu baxımdan beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin böyük uğurudur. Azərbaycanın dünyada etibarlı tərəfdaş, dünyəvi ölkə, güclü iqtisadiyyata, sabit və təhlükəsiz mühitə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur.

Azərbaycan indiyədək beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara - bir sözlə, nüfuzlu tədbirlərə evsahibliyi edib. Bunlara "Eurovision" musiqi yarışması, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" Qran-prisini misal göstərmək olar.

Belə tədbirlərin keçirilməsi üçün etimad göstərilməsi təsadüfi deyil. Bu, əlbəttə, Azərbaycanın qazandığı mövqeyin, ölkəmizin beynəlxalq çəkisinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında qazandığı reputasiyanın ifadəsidir. Eyni zamanda, belə tədbirlər ölkəmiz, dövlətimiz üçün vacib dividendlər gətirir.

### Bakı pilotları qarşılamağa hazırdır

Bundan öncəki illərdə olduğu kimi, bu dəfə də Azərbaycan "Formula-1" yarışlarına adına layiq uğurla evsahibliyi edəcək. Dünyanın bütün qitələrinin telekanallarında yenə də "Bakı", "Azərbaycan" sözləri qürurla səslənəcək.

"Formula-1" təqvimindəki ən yeni trekin yarışa hazırlığı yüksək səviyyədədir. Hər şey çox mükəmməl təşkil olunub. Bu il təşkilatçılar ötən illərə nisbətən daha hazırlıqlıdırlar. Mütəxəssislər hesab edirlər ki, ötən il Bakıda keçirilən yarış xoş sürprizlə yadda qalmışdır, bu il isə Azərbaycan Qran-prisi daha möhtəşəm olacaq.

"Formula-1" yarışlarının ölkəmizdə təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin yarış obyektinin tikintisi üzrə rəhbəri Tom Butçer bildirib ki, Bakı artıq yarışlara hazırdır: "Çalışırıq ki, yarışı, əvvəlki illərdə olduğu kimi, yaxşı təşkil edək. Yolları tam bağlamazdan əvvəl görülməyən bir sıra işlər vardı. Bəzi yerlərdə sədd və qapılar quraşdırdıq, rəngləmə işləri apardıq. Ötən həftədən başlayaraq komandaların yükləri hava, quru və su yolu ilə Bakıya gətirilir. Tezliklə pilotları da Bakıda görə biləcəyik".

### Şəhərimizin keçmişi ilə bugününü canlandıran trek

Bakı Şəhər Halqası paytaxtımızın tam mərkəzindən və ən gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. "Formula-1" Azərbaycan Qran-prisi Azadlıq meydanından start götürəcək və həmin yerdə də başa çatacaq. Trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində olacaq.

Azadlıq meydanı yarışın başlayıb bitdiyi yer olduğu üçün trekin əsas hissəsini təşkil edəcək. Burada inşa olunan Paddok arenasında yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, "Formula-1" rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla 44 dayanacaq tikilib. Məhz bu ərazidə yarışın startı və finişi olacaq. Qaliblər isə pit binasının podium hissəsində mükafatlandırılacaqlar.

Azadlıq meydanının qarşısı həm də bolidlərin sürətlə hərəkət edəcəyi yoldur. Burada hərəkət zamanı çox gözəl mənzərə yaranacaq. Çünki bir yanda "Formula-1" Paddok Klubunun arxasında görünən Hökumət Evi, digər tərəfdə isə start nöqtəsinə tərəf uzanan dənizkənarı yol və Dənizkənarı Milli Park diqqəti çəkir.

Dənizkənarı Milli Park Bakının əvəzsiz incisi və maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, şəhərimizin tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Həm də bulvar kimi tanınan bu ərazi son günlər "Formula-1" yarışlarını izləmək üçün paytaxtımıza gələn qonaqların da sevimli gəzinti və istirahət yerinə çevrilib. Azərbaycanın dinamik inkişafı nəticəsində son illərdə paytaxtımızda vüsət alan abadlıq-quruculuq işləri buradan da yan ötməyib. Bakının bu əsas parkı yenilənib, müasir infrastruktur və bağ-park estetikasının ən yaxşı nümunələri ilə zənginləşib. Bu mənada Dənizkənarı Milli Park inkişaf edən ölkəmizi və gözəlləşən Bakını özündə simvolizə edən ərazi olaraq həm də Bakı Şəhər Halqasının əsas hissələrindən biridir.

Yarışın əsas izləyici tribunalarından olan Abşeron tribunası da Azadlıq meydanının qarşısında, bulvar ərazisində yerləşir. Bu tribunadan yarışın ən həlledici məqamlarını, start və finişi izləmək mümkündür.

Bulvarı və Hökumət Evini ötdükdən və 90 dərəcəli sol döngədən sonra pilotlar 300 metrlik məsafədə rus şairi A.S.Puşkinin adını daşıyan küçədən keçəcəklər. İkinci döngədən sonra bolidləri trekin Xaqani küçəsi boyu 1 km uzanan və uzunluğuna görə ikinci böyük sürətlənmə xətti sayılan hissəsi gözləyir. Sonra pilotlar yenidən kəskin döngə ilə qarşılaşacaqlar. Bu döngə pilotlara ötmə üçün əla şərait yaradacaq. Şəhər treklərində çox nadir hallarda iki uzun sürətlənmə xətti görmək olar.

Üçüncü döngədən sonra pilotlar sol tərəfə - Bülbül prospektinə doğru yol alırlar. 240 metrlik məsafəni düz keçdikdən sonra 90 dərəcəli sağ döngə ilə qarşılaşırlar. Bu düz yolun sol tərəfində gözəl mənzərəli Sahil bağı yerləşir.

Daha sonra pilotlar Zərifə Əliyeva küçəsinə dönəcək, kiçik bucaqlı döngədən sonra 350 metr uzunluğunda məsafə qət edəcəklər. Növbəti 5-ci və 6-cı döngələr pilotları Neftçilər prospektinin əks istiqamətindəki yola yönəldir. Bura trekin iki fərqli hissəsinin yan-yana olduğu bölmədir. Təxminən 300 metr məsafədə "Formula-1" bolidləri eyni küçədə əks istiqamətlərdə hərəkət edəcəklər, onları yalnız baryerlər ayıracaq.

Bununla trekin müasir Bakının mərkəz hissəsini göstərən görüntüləri sona çatacaq. Bakının bu əraziləri sanki Cənubi Avropanı - Barselona və Nitsanı xatırladır. Bu ərazidə çox sayda mağaza, restoran və kafelər yer alır. Həmçinin müasir memarlıq üslubunda tikilmiş bir neçə ticarət mərkəzi və gözoxşayan mənzərəyə sahib Xəzərin sahili trekə xüsusi gözəllik verir. Bəzi tribunalar da bu zonada yerləşir.

Yeddinci döngədən sonra pilotlar Əziz Əliyev küçəsi ilə İçəri şəhərin qala divarlarına tərəf yönələcəklər. Bolidlər 500 metrə yaxın məsafəni ensiz küçələrdə qət edəcəklər. Bu yerlərdə trek qismən səki hesabına genişləndirilib. Trekin ən çox çətinliyə malik hissəsi də buradan və qarşıdakı 8-ci döngədən sonra başlayır. Şəhər trekinin bu hissəsi artıq onun vizit kartına çevrilib. 8-ci döngədən sonra yol maksimal şəkildə daralacaq və bu hissədə pilotları kəskin yoxuş gözləyəcək. Pilotları sol tərəfdə İçəri şəhərin qala divarları və giriş qapısı, sağ tərəfdə isə yaşayış binaları əhatə edəcək.

### 6 kilometrlik 51 dövrə

Aprelin 26-sı və 27-də pilotların sərbəst yürüşləri və sıralama turları keçiriləcək. Aprelin 28-də isə möhtəşəm Azərbaycan Qran-prisinə (51 dövrə və ya 120 dəq.) start veriləcək. Digər qran-prilərdə olduğu kimi, paytaxtımızda yarışacaq komandalar da, reqlamentə əsasən, öncə iki sərbəst yürüşdə trasla tanış olacaq, maşınları yarışa hazır vəziyyətə gətirəcəklər.

Şənbə günü, aprelin 27-də səhər pilotlar bir saatlıq məşq keçəcəklər. Adətən nahardan sonra sıralanma turu və ya təsnifat mərhələsi təşkil olunur. Bu turun yekun nəticəsinə görə pilotların bazar günü keçiriləcək yarışda start düzümü formalaşır.

Aprelin 28-də isə Qran-prinin yarış günüdür. Yarışanlar bir gün əvvəlki sıralanma turunun nəticələrinə görə startda yerlərini tuturlar. Əvvəlcə sürücülər trasda bir dövrə vuraraq təkərləri və əyləcləri qızdırır, dövrənin tamamında yenidən start yerlərini tuturlar. Yarışın direktoru Çarli Vaytinqin xüsusi işarəsindən, yəni 5 qırmızı işığın sönməsindən sonra həyəcan başlayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Mədəniyyətimiz qürur doğurur

## "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalı könülləri fəth edir

Uzun illərin ayrılığına çətinliklə tablaşan Murov dağı zaman-zaman bəlalar çəkən başına elə bil çalma bağlamışdı. Yazın bu oğlan çağında dağlara yağan qarın soyuq nəfəsi Tərtərdə də açıqca duyulurdu. Hava soyuq olsa da, vətən eşqi, Qarabağ sevgisi "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalının Tərtərdə gerçəkləşən təqdimatı gözlərə sevinc, ürəklərə hərarət gətirmişdi.









Peşəkarlıqla hazırlanıb yaradıcılıqla araya-ərsəyə gətirilən bu möhtəşəm mədəniyyət bayramı könülləri fəth edir, bu cəbhə bölgəsində xoş ovqat, yüksək əhvali-ruhiyyə yaradır, sakinlərinə vətənpərvərlik hissi aşılayır, Qarabağın tezliklə işğaldan azad olunacağına inamı daha da artırırdı.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin baş meydanında ucaldılan əzəmətli abidəsinin önünə tər qızıl güllər qoydular.

Şəhər başdan-başa bayram libasına bürünmüşdü. Hər tərəfdə səliqə-sahman diqqət çəkir, küçələr, prospektlər, park və xiyabanlar zümrüd libası, al-əlvan çiçəkləri ilə üzə gülürdü. Bahar təravətli təbiətlə xoş ovqatlı, bayram əhvallı Tərtər sakinləri arasında qəribə bir ahəngdarlıq yaranmışdı. "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalının Tərtər mərhələsi sözün həqiqi mənasında bölgə sakinlərinə bayram sevinci yaşatdı, unudulmaz xoş xatirə kimi yaddaşlara həkk oldu.

Mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin, xalqımızın əsrlərdən bəri qorunub saxlanan adət-ənənələrinin parlaq təntənəsinə çevrilən bu möhtəşəm layihənin həyata keçirilməsi üçün Tərtər rayonunun seçilməsi, əlbəttə, təsadüfi xarakter daşımırdı. Bərdə Regional Mədəniyyət İdarəsinə daxil olan Tərtər son illər sosial-iqtisadi inkişaf istiqamətində böyük uğurlara imza atır. Cəbhə bölgəsi olaraq Prezident İlham Əliyevin qayğısından güc alan Tərtər gerçək bir intibah dövrü yaşayır. Rayon mərkəzi də, yaxın-uzaq kəndlər də son bir neçə ildə sürətlə inkişaf etmiş, dəyişib gözəlləşmişdir. Dövlətin qayğısı ilə rayonda yol infrastrukturu əsaslı şəkildə yenilənmişdir. Su və kanalizasiya sisteminin yenidən qurulması, əhalinin elektrik enerjisi və təbii qazla fasiləsiz təmin edilməsi, sosialyönümlü layihələrin bölgədə uğurla həyata keçirilməsi hər kəsdə məmnunluq doğuran yüksəlişin göz önündəki nümunəsidir. Ötən illər ərzində rayonun mədəni həyatında diqqət çəkən yeniliklər xüsusilə önəmlidir. Heydər Əliyev Mərkəzi, ulu öndərin adını daşıyan park, tarixdiyarşünaslıq muzeyi, Gənclər mərkəzi, şahmat məktəbi, əsaslı şəkildə təmir olunmuş şəhər mədəniyyət evi və digər mədəniyyət müəssisələri Tərtərin yaraşıqlı görkəminə fərqli naxışlar vurur. "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalının növbəti turunun məhz Tərtərdə keçirilməsi bir də ona görə məqsədəuyğundur ki, Ermənistan silahlı qüvvələri ilə təmas xəttinə yaxın, atəşkəs rejiminin tez-tez pozulduğu bir ərazidə yaşayan bölgə əhalisinin, ərazidəki "N" saylı hərbi hissələrdə xidmət edən əsgər və zabitlərin mənəvi dəstəyə daha çox ehtiyacı var.

Heydər Əliyev parkında keçirilən tədbirə rayon sakinləri, çoxsaylı qonaqlar, Mədəniyyət Nazirliyinin nümayəndələri, regional mədəniyyət idarələrinin rəhbərləri, mədəniyyət işçiləri qatılmışdılar. Parkda hər bir regional mədəniyyət idarəsinin təqdimatında sərgi çadırları qurulmuşdu. Hər çadırda regionun spesifik xüsusiyyətinə uyğun olaraq təmsil olunan müxtəlif mədəniyyət nümunələri, məişət qabları, bədii tikmələr, bəzək əşyaları, nəfis əl işləri, rəsm əsərləri və qiymətli sənətkarlıq əsərləri nümayiş etdirilirdi. Sərgidə Qarabağ və Qazax xalçalarının nümayişi tamaşaçıların böyük marağına səbəb oldu. El havasının sədaları altında Qarabağ atlarının meydana gəlişini tamaşaçılar alqışlarla qarşıladılar.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək Prezident İlham Əliyevin Tərtərə və tərtərlilərə davamlı qayğısından minnətdarlıqla danışdı. O, respublikamızın sürətlə artan siyasi nüfuzu, hərbi və iqtisadi qüdrəti ilə yanaşı, mədəniyyət sahəsində qazanılan uğurları, Azərbaycan mədəniyyətinin dünyaya tanıdılmasında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın misilsiz xidmətlərini dönə-dönə vurğuladı.

Yaradıcılıq festivalında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar kitab guşəsi təşkil olunmuşdu. Guşədə böyük mütəfəkkir, filosof şairin əsərləri toplanmışdı. Burada Prezident İlham Əliyevin sərəncamları ilə cari ildə yubileylərinin keçirilməsi nəzərdə tutulan şair və yazıçıların, elm və mədəniyyət xadimlərinin kitabları da nümayiş olunurdu.

Bütün respublikanı təmsil edən yaradıcılıq festivalında hər bir regional mədəniyyət idarəsi üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri maraqlı konsert proqramı ilə çıxış etdilər. Tərtər rayonu ərazisindəki "N" saylı hərbi hissənin xüsusi təyinatlılarının tədbirdə nümayiş etdirdikləri fiziki hazırlıq və əlbəyaxa döyüş bacarığını tamaşaçılar alqışlarla qarşıladılar.

"Azərbaycan mədəniyyətinin inkişaf tarixi" mövzusunda ədəbi-bədii kompozisiyanın təqdimatı böyük maraq oyatdı. Oğuz elinin ağsaqqalı ulu Dədə Qorqudun dili ilə xalqımızın keçdiyi şanlı yüksəliş yolu obrazlı şəkildə, həm də əyani olaraq tamaşaçılara çatdırıldı.

Bərdə Regional Mədəniyyət İdarəsinin rəisi İlyas Hacıyev "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalının Tərtər təqdimatının yekunları ilə bağlı təəssüratını bizimlə bölüşdü:

- Ölkə Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində bütün istiqamətlərdə böyük sürətlə inkişaf edən Azərbaycan bu gün dünyanı heyran edir. Qürur duyulası və inkar edilməsi mümkün olmayan bir reallıqdır ki, Azərbaycanın xeyir-duası olmadan regionda hər hansı bir layihəni həyata keçirmək qeyri-mümkündür. Böyük razılıq və minnətdarlıq hissi ilə qeyd etməliyik ki, ölkəmizin dinamik inkişafı mədəniyyət sayəsində də ciddi yeniliklərlə müşayiət olunur. Respublikanın Birinci vitse-prezidenti mədəniyyətimizin böyük hamisi Mehriban xanım Əliyevanın tarixi xidmətləri sayəsində Azərbaycan mədəniyyəti dünya inciləri sırasına daxil edilmişdir. Bu gün Azərbaycan mədəniyyəti hər bir ölkə vətəndaşında qürur doğuracaq səviyyədədir. Ölkəmizi dolaşan "Bölgələrdən-bölgələrə" yaradıcılıq festivalı mədəniyyətimizin qədimliyini, möhtəşəmliyini parlaq şəkildə nümayiş etdirməkdədir. Bu uğurlu layihənin ictimai-siyasi və mənəvi-əxlaqi əhəmiyyəti böyükdür. Firavan həyatın, xoş güzəranın yaratdığı yüksək əhvali-ruhiyyəyə bu layihə bir az da xoş ovqat qatır. Ayrı-ayrı bölgələrin sakinləri bu festival sayəsində bir-birləri ilə tanış olur, yaxınlaşır, xalqımızın birliyi daha sarsılmaz olur. Bu şərəfli missiyanın mədəni, ədəbi-bədii yaradıcılıqla orijinal bir formada həyata keçirilməsindən biz mədəniyyət işçiləri çox məmnunuq.

Festival böyük atəşfəşanlıqla başa çatdı. Göylərə ucalan al-əlvan fişənglərin parlaq işığı, heç şübhəsiz, nankor qonşularımıza, namərd düşmənlərimizə ürəyimizdən keçən bir mühüm mətləbi də anlatdı. Belə ki, atılan fişənglər bir xəbərdarlıq siqnalıydı. Gün gələr, Ali Baş Komandanın rəhbərliyi ilə ən yaxın zamanda Qarabağ işğaldan azad edilər. O gün uzaqda deyil.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***













**● Dövlətin sosial siyasətinin prioritetləri**

# Azərbaycan gənclərin məşğulluğunun dəstəklənməsində çox ölkələrə nümunədir

**Hər bir ölkə üçün gənclər siyasətinin güclənməsinə, bu siyasətin mühüm tərkib hissəsi kimi, gənclərin səmərəli məşğulluğuna, onların iqtisadi inkişaf proseslərinə cəlb olunmasına yönəldilən səy və investisiyalar mahiyyət etibarilə cəmiyyətin gələcək davamlı tərəqqisinə xidmət edir. Qlobal iqtisadi böhrandan sonrakı dövrdə beynəlxalq əmək bazarında nisbi sabitliyin müşahidə olunmasına baxmayaraq, işsiz gənclərin sayının ildən-ilə artaraq 70 milyonu ötməsi, 15-24 yaşlı gənclər arasında işsizlik səviyyəsinin dünya üzrə orta işsizlik səviyyəsini 3 dəfə üstələyərək 13,1 faiz təşkil etməsi gənclərin məşğulluğunun təminatı məsələsinin aktuallaşmasına səbəb olub.**

Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dinamik və uzunmüddətli inkişafını təmin edən uğurlu islahatlar proqramı ölkəmizdə işsizliyin kəskin şəkildə azalmasına, əmək bazarında sabitliyin əldə olunmasına imkan verməklə, gənclərin əmək bazarına çıxışının və məşğulluğunun artırılmasının hərtərəfli dəstəklənməsi, iqtisadiyyatın dayanıqlı inkişafında gənclərin iştirakının təmin edilməsində dövlət siyasətinin həyata keçirilməsinə şərait yaradıb. Bunun nəticəsidir ki, ölkədə gənclər arasında işsizlik səviyyəsi kəskin şəkildə azalmaqdadır. Azərbaycan gəncliyi ictimai həyatın və iqtisadiyyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilir. Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Bu baxımdan təsadüfi deyil ki, Azərbaycan Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən gənclərin məşğulluq problemlərinin həllinə görə dünyada 10 lider ölkə sırasındadır. BƏT-in rəsmi saytındakı "Gənclərin Məşğulluq Siyasətləri üzrə İnformasiya Sistemi" bölməsində bir sıra ölkələrin, o cümlədən Azərbaycan gənclərinin səmərəli məşğulluğunun təmin olunması məsələləri ilə bağlı dolğun hüquqi bazası, siyasi və praktik iş təcrübəsi, aktiv məşğulluq proqramları təqdim olunur. 2016-cı ildə isə MDB ölkələri və Gürcüstan nümayəndələrinin iştirakı ilə gənclərin məşğulluğunun təmin edilməsi sahəsində uğurlu təcrübələr üzrə BƏT tərəfindən keçirilmiş müsabiqədə Azərbaycan nümayəndə heyətinin təqdimatı ən çox səs toplayaraq gənclərin məşğulluğunun dəstəklənməsi sahəsində MDB-də ən yaxşı təcrübə nümunəsi kimi birinci yerə layiq görülüb və bununla əlaqədar BƏT-in diplomu ilə təltif edilib.

Ölkəmizdə mövcud olan müsbət demoqrafik vəziyyət və inkişaf tendensiyaları dövlətin əmək ehtiyatlarının, o cümlədən gənc istehsal qüvvələrinin formalaşmasına və səmərəli yerləşməsinə təsir edən əsas amillərdən biridir. Hazırda Azərbaycan Avropa və MDB-də demoqrafik baxımdan cavan yaş strukturuna malik az sayda olan ölkələrdən biridir. 14-29 yaşda olan əhali (gənclər) ölkə əhalisinin 25,4, uşaqlar isə (0-14 yaşda) 22,6 faizini təşkil edir. Bununla yanaşı, son 15 il ərzində təbii artım və doğulanların sayının sabit artması (hər 1000 nəfərə hesabı ilə müvafiq olaraq 8,3 və 14,2 nəfərədək yüksəlməsi) nəticəsində bütövlükdə ölkə əhalisinin, o cümlədən əmək qabiliyyətli əhalinin sayında da əhəmiyyətli artım baş vermişdir. 15-64 yaş qrupunda olan əhalinin payı 65,8 faizdən 70,9 faizədək dəyişmişdir.

Hər il orta hesabla 100 min nəfərə qədər gəncin əmək bazarına daxil olması bu sayda gənc işçi qüvvəsinin əmək bazarı tərəfindən qarşılanması tələbi makroiqtisadi, demoqrafik, məşğulluq və təhsil siyasətlərinin qarşılıqlı əlaqələndirilməsinin gücləndirilməsini zəruri edir. 2018-ci ildə ölkə üzrə iqtisadi fəal əhalinin tərkibində 15-24 yaşda gənclərin payı 12, 15-29 yaş qruplarında isə 27 faiz təşkil edir.

Təbii ki, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, iqtisadiyyatın dinamik inkişafı şəraitində gənclərin potensial imkanlarından tam istifadə olunması, onların məşğulluğunun təminatı və müasir dövrün tələblərinə cavab verən gənc kadr potensialının formalaşdırılması gələcəkdə iqtisadi artımın təmin edilməsi üçün olduqca əhəmiyyətlidir. Müasir əmək bazarının tələblərinə uyğun hazırlığa malik gənc kadrların mövcudluğu gələcək iqtisadi artımın və tərəqqinin əsas şərtlərindən biridir.



Qeyd olunan amillər də nəzərə alınmaqla ölkəmizdə fəal gənclər siyasəti əsasında bir çox sosialyönümlü dövlət proqramlarına və strategiyalara, o cümlədən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına və "2019-2030-cu illərdə Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"na, habelə Azərbaycan hökuməti ilə BƏT arasında 2016-2020-ci illər üçün əməkdaşlıq prioritetlərini müəyyən edən ikinci "Layiqli Əmək üzrə Ölkə Proqramı"na uyğun olaraq, gənclərin peşə-ixtisas hazırlığının yüksəldilməsinə, məşğulluğunun artırılmasına yönələn mühüm addımlar atılır.

■ ■ ■

Bu gün Azərbaycan gənclərin məşğulluq probleminin həlli ilə bağlı BƏT-in müvafiq konvensiyalarına, qətnamələrinə qoşulub. "İşsizlikdən sığorta haqqında", "Məşğulluq haqqında" qanunlar qəbul olunub. Bütün bunlar dövlət başçısının tapşırıqlarına uyğun olaraq, əmək münasibətlərinin leqallaşması, işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, əhalinin məşğulluğu sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi və s. aktiv əmək bazarı tədbirlərinin səmərəliliyinin artmasına, inklüziv məşğulluğun təmin olunmasına, işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə, ölkədə əmək bazarında yeni tənzimləmə mexanizmlərinin formalaşmasına zəmin yaradıb.

Bütün bu proseslər eyni zamanda gənclərlə bağlı aktiv məşğulluq tədbirlərinin ildən-ilə güclənməsi ilə tamamlanır. 2018-ci ilin yekunlarına əsasən, Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 14698 nəfər gənc münasib işlə təmin olunub, 1275 nəfər gənc işəgötürənlərin real tələbləri əsasında peşə hazırlığına, 319 nəfər gənc isə haqqı ödənilən ictimai işlərə cəlb edilib.

İşsizlikdən kiçik sahibkarlığa çıxış imkanı yaradan özünüməşğulluq proqramında gənclərin də fəal iştirakına geniş şərait yaradılıb. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, özünüməşğulluq proqramına 2018-ci ildə cəlb edilən 7267 nəfər işsizdən 1174 nəfəri gənclər olub. Digər proqram iştirakçıları kimi, onlar da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilmiş aktivlər (mal və materiallar) hesabına kiçik ailə bizneslərini qurublar. Artıq cari ilin ilk rübündə arasında gənclərin də olduğu 1000-dən çox şəxs bu proqrama cəlb olunub. İl ərzində işsiz və işaxataran şəxslərin proqrama cəlb edilməsi işləri davam etdiriləcək.

■ ■ ■

Məşğulluq xidməti tərəfindən həyata keçirilən tədbirlər sırasında orta məktəblərin yuxarı sinif şagirdləri, işsiz və işaxtaran gənclər, ali təhsil

> ■ 2018-ci ilin yekunlarına əsasən, Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 14698 nəfər gənc münasib işlə təmin olunub, 1275 nəfər gənc işəgötürənlərin real tələbləri əsasında peşə hazırlığına, 319 nəfər gənc isə haqqı ödənilən ictimai işlərə cəlb edilib.
>
> ■ 2018-ci il ərzində 118138 nəfər gənc peşəyönümü məsləhətlərinə cəlb olunub. Cari ilin 3 ayı ərzində bu tədbirlərə cəlb edilənlərin sayı isə 32,8 min nəfər olub ki, onlardan da 22 mindən çoxunu gənclər təşkil edib.

müəssisələrinin tələbələri, eləcə də ali təhsilli işaxtaran gənclər üçün peşəyönümü məsləhətlərinin verilməsi və karyerada ilk addım tədbirlərinə xüsusi önəm verilir. 2018-ci il ərzində 118138 nəfər gənc peşəyönümü məsləhətlərinə cəlb olunub. Cari ilin 3 ayı ərzində bu tədbirlərə cəlb edilənlərin sayı isə 32,8 min nəfər olub ki, onlardan da 22 mindən çoxunu gənclər təşkil edib.

Peşəyönümü tədbirləri ilə yanaşı, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində və Lənkəran rayonunda məzun və tələbələrin işlə təmin olunmasına kömək göstərilməsi, eləcə də onların əmək bazarına səmərəli inteqrasiyası məqsədilə "Karyerada ilk addım" devizi altında 8 ali təhsil müəssisəsində aktiv məşğulluq tədbirləri keçirilib. Bu tədbirlərdə 457 müəssisə tərəfindən 2351 vakansiya təqdim edilib. İştirakçılara seçdikləri vakansiyalar üzrə göndərişlər verilib, məzun və tələbələrin şəxsi məlumatları müəssisələr tərəfindən qəbul olunub. Ən başlıcası, həmin tədbirlər tələbə və məzunların işəgötürənlərlə ilkin əlaqələrinin qurulmasına, onların gələcəkdə əmək bazarına inteqrasiyasına kömək edib. Bunlardan əlavə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Məşğulluq Xidmətinin təşkilatçılığı ilə İqtisad Universitetində məzunların təhsildən-işə keçid imkanlarının asanlaşdırılması, onlara işəgötürənlərə özlərini təqdimetmə bacarıqlarının formalaşdırılması məqsədilə "Karyeranı qur" təlimləri təşkil edilib.

Səriştələr əsasında hazırlanmış peşə və kvalifikasiya standartları əmək bazarının tələblərinə cavab verə biləcək kadr potensialının formalaşdırılmasında, həmçinin işsiz və işaxtaran vətəndaşların səmərəli məşğulluğunun təmin olunmasında və bütövlükdə milli işçi qüvvəsinin rəqabətqabiliyyətinin artırılmasında əsas alət rolunu oynayır. Ölkəmizdə də artıq turizm, emal sənayesi, tikinti, energetika, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrinə aid 289 peşə standartı və uyğun təlim standartları, onların əsasında 52 peşəyönümü profili və 63 ixtisas standartları hazırlanıb. Bu standartlar bir çox sahibkarlar tərəfindən istifadə edilir. Həmçinin gənc işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması sahəsində aparılan islahatların bir istiqaməti kimi əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən olunması, iqtisadiyyatın prioritetləri nəzərə alınaraq işçi qüvvəsinə olan tələbatın kəmiyyət və keyfiyyət parametrləri əsasında proqnozlaşdırılması və əmək bazarının mükəmməl monitorinq sisteminin institusional strukturunun formalaşdırılması işləri aparılır.

■ ■ ■

Aktiv məşğulluq tədbirlərinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması, çeşidinin və əhatə dairəsinin genişləndirilməsi, bu sahədə mövcud qayda və prosedurların yenilənməsi, xüsusilə məşğulluq xidmətlərinin elektron infrastrukturunun hazırlanması və bu xidmətlərin elektron müstəvidə təqdim edilməsi islahatların tərkib hissəsidir. ƏƏSMN-in vahid platforma üzərindən 18 altsistemdən ibarət yaradılmış Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi, "e-sosial" internet portalı və "Məşğulluq" altsistemi ölkəmizdə işsiz və işaxtaran şəxslərin reyestrini, ölkə üzrə mövcud iş yerlərinin vakansiya bankını, eləcə də məşğulluq xidmətlərinin elektronlaşmasını təmin edir.

Yaxın vaxtlarda istifadəyə veriləcək "Məşğulluq" altsistemi vasitəsilə hər bir işsiz və işaxtaran şəxs yaşadığı ərazidə və ümumilikdə ölkə üzrə mövcud olan vakansiyalara birbaşa elektron şəkildə müraciət edə biləcək. Eyni zamanda, işəgötürənlər və sahibkarlar şəffaf şəkildə vahid veb səhifədə axtardıqları işçi qüvvəsinə çıxış əldə edəcəklər. Bu yeni texnologiyaların tətbiqi gənclərin əmək bazarına daha tez inteqrasiya olunmasına bilavasitə öz təsirini göstərəcəkdir.

Gənclər üçün yeni aktiv əmək bazarı tədbirlərinin tətbiqi, onların çeşidinin artırılması də nəzərdə tutulur. Bu sırada aktiv məşğulluq tədbirləri sırasında işsiz, xüsusilə sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin əmək bazarına tez bir zamanda adaptasiya olunmasına, zəruri peşə, bilik və bacarıqlara yiyələnməsinə, təcrübə əldə etməsinə geniş imkanlar yaradan bir tədbir - əməkhaqqının Dövlət Məşğulluq Xidməti tərəfindən işəgötürənlərlə birgə maliyyələşdirilməsi tədbiri, işsiz şəxslərin sosial müdafiəsinin təmin olunması, bütövlükdə əmək bazarının inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Həmin proqramın tətbiqi, habelə müasir tələblərə cavab verən qısamüddətli çevik modul proqramlar vasitəsilə peşə hazırlığının təşkili, peşəyönümü sisteminin təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, onlar üçün tətbiq olunan kvotaların tətbiqinə nəzarətin gücləndirilməsi və digər istiqamətlərdə məqsədyönlü işlər aparılır.

Ölkədə gənclərin məşğulluğunun artırılması sahəsində siyasətin formalaşdırılması və həyata keçirilməsi bir çox beynəlxalq təşkilatlarla, xüsusilə Beynəlxlaq Əmək Təşkilatı, Dünya Bankı, Avropa İttifaqı, BMT İnkişaf Proqramı və digərləri ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir. Məhz bu əməkdaşlığın nəticəsi olaraq, son illər Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə Bakıda və Göyçay rayonunda icra olunan "Ali təhsilli, ilk dəfə işaxtaran gənclərin işlə təmin olunmasına dəstək" və "Gənclərin məşğulluğu subsidiya proqramı" pilot layihələri mühüm önəm kəsb edir. Həmçinin 2011-ci ildən başlayaraq BMT İnkişaf Proqramı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə layihəsi olan, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə Bakı, Sumqayıt, Gəncə, Masallı və Zaqatala şəhərlərində yaradılan Norveç SYSLAB Mərkəzləri gənclərin əmək bazarına inteqrasiyasında önəmli rola malikdir. Eləcə də BMT İnkişaf Proqramı ilə birgə icra olunan "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi əlilliyi olan şəxslərin özünüməşğulluq fəaliyyətlərinin, onların kiçik biznes qurulmasına dəstək göstərəcək ki, bu sırada gənclər də var. Dünya Bankı ilə birgə həyata keçirilən "Sosial Müdafiənin İnkişafı" layihəsi çərçivəsində isə Xəzər və Dövlət İqtisad universitetlərində "Virtual Müəssisələri"n (Təcrübə Firmalarının) yaradılması və digər istiqamətlərdə layihələrin reallaşdırılması da gənclərin məşğulluğunun inkişafına xidmət edir.

Bu günlərdə isə Dövlət Məşğulluq Xidməti və Gənclər Fondu orta-ixtisas təhsil müəssisələri və ali təhsil müəssisələrinin 29 yaşına qədər olan məzunları üçün "Gənclərin Məşğulluğu Proqramı"nı həyata keçirməyə başlayıb. Şübhə yox ki, proqramın reallaşdırılması gənclərin uğurlu karyera planlaşdırmasına, xüsusilə də regionlarda əlavə iş yerlərinin yaradılmasına, gənclərin ilk iş təcrübəsi əldə etməsinə, əmək bazarında rəqabətin artırılmasına töhfə verəcək.

■ ■ ■

Yeni təşəbbüslər əsasında ölkədə gənclərin məşğulluğu sahəsində dövlət siyasəti daim təkmilləşdirilir. Sosial tərəfdaşlıq prinsipi əsasında bazar iqtisadiyyatının tələblərinə uyğun bilik və bacarıqlara malik olan gənc işçi qüvvəsinin formalaşdırılması, onların əmək bazarında fəal iştirakı üçün bütün maneələrin aradan qaldırılması həm ölkə miqyasında, həm də hər bir müəssisə səviyyəsində əməyin məhsuldarlığının artmasına imkan yaradacaq və ümumən ölkənin gələcək iqtisadi inkişafında fəal rol oynayacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

**● Tribuna**

# Gənclik gələcəkdir



**Hər bir xalqın gələcəyə ümidi onun sağlam gəncliyi ilə ölçülür. İntellektual səviyyəsi, geniş və əhatəli dünyagörüşü olan gənclər dövlətçiliyin, müstəqilliyin möhkəmlənməsi üçün öz Vətənini dünya ölkələri arasında uğurla təmsil edirlər. Bu gün müasir Azərbaycan gəncliyinin də vətənpərvərlik ruhunun güclü olması qürur doğurur.**

**Heç kəsə sirr deyil ki, hazırda təhsilimizin dövlət siyasətinin əsas prioritetlərindən biri olması ümummilli lider Heydər Əliyevin təhsilin inkişafına göstərdiyi müstəsna diqqət və qayğısının davamıdır.**

Ulu öndər təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmamış, bütövlükdə, insanın öz həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin mühüm rola malik olduğunu önə çəkmişdir. Ümummilli lider Heydər Əliyevin siyasəti bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə gənclərin inkişafı üçün geniş imkanlar yaradılır. Respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır.

Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissini yüksəldir. Sevindirici haldır ki, bu da tələbələrin elmi potensialını, yaradıcılığını üzə çıxarmaq və onlarda elmə həvəs və maraq oyatmasına bir stimuldur.

Ali təhsil ocaqlarında aparılan tərbiyə işi - milli-mənəvi əxlaqi dəyərlərə, eləcə də dünya mədəniyyətinin ənənələrinə, müasir həyatın dəyər və tələbatlar sisteminə uyğun istiqamətləndirilir. Bu məqsədlə tərbiyəyə yönəlmiş ictimai fəallıq, ünsiyyət və liderlik cəhətlərinin inkişaf etdirilməsi tələbə gənclərin həyat fəaliyyətinin dinamizmini və yaradıcı xarakterinin təşəkkülünü təmin edir. Gənclərin xalqımızın milli adət-ənənələrinin təbliği, qədim tarixi memarlığının dərindən mənimsənilməsi, milli bayram mərasimlərinin qorunub saxlanılması, milli musiqi zövqünün formalaşması məqsədilə tədbirlərin təşkili, gənc istedadların müsabiqələrə cəlb olunması böyük əhəmiyyət daşıyır.

Gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yerlərdən birini tutur. Məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini layiqincə doğrulda bilirlər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin gəncləri də ölkəmizdə həyata keçirilən bütün daxili və beynəlxalq miqyaslı tədbirlərdə könüllü olaraq fəal iştirak edirlər. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları idman yarışlarında, "Formula-1" Azərbaycan Qran-prisində tələbə gənclərimiz könüllülər cərgəsinin ilk sıralarında duraraq ölkəmizə gələn qonaqlara Azərbaycan gənclərinin yüksək mədəniyyətini, savadını və multikultural dəyərlərə böyük ehtiram göstərmələrini ən yüksək səviyyədə nümayiş etdirdilər.

Hazırda universitetimizdə gənclərə şəxsiyyətyönümlü tərbiyə və kollektiv fəaliyyətin formaları ilə uzlaşan özünütərbiyə mühitinin yaradılması, tələbələrə yüksək mənəvi keyfiyyətlər, vətənpərvərlik duyğuları aşılayan, dərsdənkənar asudə vaxtlarının səmərəli keçirilməsini təmin edən proqramların təşkili onların dünyagörüşünün zənginləşməsinə xidmət edir.

Ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı gənclərin hərtərəfli inkişafı ilə sıx əlaqədədir. Gənclik gələcəkdir və bu gələcəyin parlaq olması, ilk növbədə, gəncliyə diqqət və qayğının təməl daşını təşkil edir. Təbii ki, onlar xüsusilə diqqət və qayğıya ehtiyacı olan, gənc olmalarına rəğmən elm və təhsil sahəsində çalışaraq həyatlarını maariflənməyə, öyrənməyə, eləcə də maarifləndirməyə və öyrətməyə həsr edən, bilik və təcrübə qazanmağı öz həyat qayələrinə çevirən savadlı və vətənpərvər ruhlu gənc nəsildir. Elə bu səbəbdən gənclərə dövlət səviyyəsində göstərilən diqqət və qayğı sevindiricidir.

Ölkəmizin rəhbəri İlham Əliyevin biz gənclərə müraciəti zamanı dediyi kimi: "Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir".

***İlahə HƏSƏNOVA,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə-gənclər təşkilatının sədri***

**● Könüllülər**

# Daha güclü, daha zəngin Azərbaycan uğrunda, irəli!



**Bakı Slavyan Universitetinin Tələbə-gənclər təşkilatı sədrinin vəzifəsini icra edirəm. Burada tələbələrimizin elmi nailiyyətlər əldə etməsi üçün hər cür şərait yaradılıb. Universitetimizdə formalaşan könüllülərin tərkibində mən də ötən il "Formula-1"in keçirilmə müddətində ölkəmizə gələn əcnəbi qonaqlarla yaxından təmas qurmağa və xidmət göstərməyə layiq olduğumu təsdiqlədim. Bundan çox məmnun qalmışdım. Bu il də növbəti dəfə dünyanın sürət həvəskarlarının diqqətini doğma Bakımıza yönəldən "Formula-1"də könüllü olaraq iştirak edirəm.**

Universitetimizin tələbə gənclərinin demək olar ki, 60-70 faizi könüllülərdən ibarətdir. Bu şərəfli xidməti göstərmək üçün biz xüsusi təlimlər və treninqlər keçirir, xalqımızın milli mənəvi dəyərlərinin təbliği istiqamətində üzərimizə düşən vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışırıq.

Açığı, gənclərimizin milli və bəşəri hisslərlə yaşaması məni çox sevindirir. Biz öz milli adət-ənənələrimizi, tarix və mədəniyyətimizi, coğrafiya və etnoqrafiyamızı, qədim məişət və zəngin mətbəximizin xarici ölkələrdən gələn əcnəbilərə olduğu kimi çatdırılmasında mühüm vasitə hesab edilirik. Bu isə biz könüllülərin üzərinə daha böyük və ciddi məsuliyyət qoyur.

Ölkəmizin gənclik ordusu, təbii ki, yalnız könüllülərdən ibarət deyil. Əlbəttə, gənclər bu gün mərkəzi və yerli icra orqanlarında, o cümlədən beynəlxalq təşkilatlarda və şirkətlərdə çalışaraq bilik və bacarıqlarını dövlətimizin möhkəmlənməsinə və inkişafına yönəldirlər. Bu amilin əhəmiyyəti böyükdür. Çünki bu, bizim Vətənimizdir.

Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində gənclər Azərbaycanın inkişafını və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırır. Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Bizim əsas yolumuz Prezidentimizin ətrafında daha sıx birləşərək azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

Prezident İlham Əliyev Azərbaycan Gənclərinin IV Forumunda çıxış edərək belə bir fikir bildirdi: "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Biz gənclər isə deyirik: "Cənab Prezident, biz gənclər, tələbə ordusu bütün fəaliyyətimizdə qayğınızı hər zaman hiss edir və Sizə güvənirik..."

Bütün sahələrdə gedən inkişaf proseslərini yaxından izləyir və dövlətimizin əldə etdiyi nailiyyətlərlə qürur duyuruq. Dövlət başçısının rəhbərliyi ilə dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz ildən-ilə möhkəmlənir və hərbi qüdrəti artır. Xalqımızın rifahı naminə görülən bütün işlər Azərbaycan gənclərində xoşbəxt gələcəyə olan inam və əminliyi daha da artırır. Biz gənclərin ümumi fikri, amalı və məqsədi belədir: daha güclü, daha zəngin Azərbaycan uğrunda, irəli!

***Aylan AĞAZADƏ,***
***Bakı Slavyan Universitetinin tələbəsi***

**● Xəbər**

# İstedadlı gənclərə dövlət qayğısı davam edir

**Hələ 1996-cı il iyunun 22-də istedadlı gənclərin yaradıcılıq potensialını inkişaf etdirmək, onlara dövlət qayğısını təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyev "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman imzaladı.**

Bu fərmana uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə indiyədək incəsənət sahəsində xüsusi istedadı olan 124 gəncin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb. Onlar Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülüblər. Dövlət başçısı İlham Əliyevin 2013-cü il 2 iyul tarixli fərmanı ilə elm, mədəniyyət, ədəbiyyat və incəsənət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclər üçün "Prezident mükafatı" təsis edilib. Onlarla gənc bu mükafatla təltif olunub.

Gənc nəslin incəsənətə cəlb olunmasına, bu sahədə yüksək təhsil almasına böyük diqqət və qayğının təzahürü olaraq son illər ölkəmizdə yeni uşaq musiqi, incəsənət, aşıq, muğam məktəbləri yaradılıb. Həmçinin yeni məktəb binaları tikilib və ya əsaslı təmir edilib, məktəblər zəruri avadanlıq, tədris vəsaitləri ilə təchiz olunub. Hazırda Mədəniyyət Nazirliyi sistemində 211 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi fəaliyyət göstərir.

Ölkədə gənc istedadların üzə çıxarılması, onların peşəkar inkişafının istiqamətləndirilməsi məqsədilə mütəmadi olaraq festivallar, müsabiqələr, sərgilər təşkil olunur. Gənc musiqiçilər, rəqqaslar, rəssamlar xarici ölkələrdə keçirilən müsabiqə, festival, sərgilərdə fəal iştirak edirlər. Mədəniyyət Nazirliyindən bildirildiyinə görə, son beş ildə uşaq və yeniyetmələrin 70-dən çox rəsm müsabiqəsi və sərgisi keçirilib. Bundan başqa, "Yaddaş" və "Salnamə-film" studiyalarında gənc rejissorlar tərəfindən onlarla ekran əsəri çəkilib.

***"Azərbaycan"***

*Təkrar*

# "Azərsu" ASC daxili vəsaiti hesabına Bakı şəhəri və Abşeron yarımadasında izolyasiya və hidroizolyasiya işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Məmmədyar Musayev, 431-47-67/2288) ala bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 may 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **29 may 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **30 may 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi

## *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Milli Məkan Məlumatları İnformasiya Sisteminin formalaşdırılması və bu sistemin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası ilə bağlı məsləhətçi xidmətlərinin cəlb edilməsi üzrə açıq tender elan edir.

Tenderdə informasiya sisteminin formalaşdırılması və inteqrasiyası xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1700 (bir min yeddi yüz) manat və ya 1000 (bir min) ABŞ dolları məbləğində iştirak haqqını aşağıda göstərilən müvafiq bank hesabına köçürdükdən və bunu təsdiq edən sənədi təqdim etdikdən sonra həm Azərbaycan, həm də ingilis dillərində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 806, tel.: +99412 4902408 (daxili: 242); faks: +99412 4903359), e-mail: ekhanalibayli@emdk.gov.az) ünvanından ala bilərlər:

**AZN hesabı**
**Emitent**
Dövlət Xəzinədarlıq Agentliyi
Bank kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı: AZ41NABZ01360100000000003944
SWIFT BIK: CTREAZ22
**Alan**
Əmlak Məsələləri Dövlət Komitəsi
VÖEN: 2000015631
H/H: AZ84CTRE00000000000002647970
Büdcə səviyyəsinin kodu: 7
Büdcə təsnifatının kodu:142340
**USD hesabı**
Alan: Əmlak Məsələləri Dövlət Komitəsi
Ünvan: Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50
VÖEN: 2000015631
Dollar hesabı: AZ02AİİB32150018403700201107
Büdcə səviyyəsinin kodu: 7
Büdcə təsnifatının kodu: 142340
"Kapital Bank" ASC-nin Xətai filialı
VÖEN: 9900003611
Bank kodu: 200071
Hesab: AZ56NABZ01350200000000001840
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində Əsli və Surəti yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin Əsli və Surəti arasında fərqlər olduqda üstünlük üzərində Əsli sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 15 (on beş) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- *iddiaçının bu sahədəki iş təcrübəsi;*
- *iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;*
- *görüləcək işlərin dəyəri.*

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 17 may 2019-cu il saat 17:00-dək, tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 27 may 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 812, əlaqələndirici şəxs - İxtiyar Rəhmanov) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 29 may 2019-cu il saat 15:00-da Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 26.02.2019-cu il və 13.03.2019-cu il tarixli nömrələrində dərc edilmiş 4 LOT-dan ibarət açıq tender aşağıdakı LOT-lar üzrə Tender komissiyasının 18 aprel 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir:

LOT 2: Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması

LOT 3: Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması

LOT 4: Azərbaycan Respublikasının Mərkəzi Bankında dizayner studiyası üçün fotoaparatın və onun linzasının satın alınması.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tender komissiyası bildirir ki, 2019-cu il 13 mart tarixdə elan edilmiş nazirliyin aparatının balansında olan nəqliyyat vasitələrinin cari ildə hissələrinin yenisi ilə əvəz olunması və ya təmiri, sürtkü materiallarının dəyişdirilməsi xidmətlərinin satın alınması ilə bağlı kotirovka sorğusunun nəticələri ləğv olunmuşdur.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikası Vergilər Nazirliyi qrafik, video və qrafik videoçarxların, videotəlimatların və reportajların hazırlanması, reklamların internetdə (sosial şəbəkələrdə) yerləşdirilməsi, dizayn, dizayna düzəlişlərin edilməsi və fərdiləşdirmə işlərinin satın alınması üçün

## *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 23 may 2019-cu il tarixində yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *İştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *İştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *İştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *İştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *İştirakçının bank rekvizitləri barədə məlumat;*
- *İştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *Satınalma müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edəcək və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri barədə məlumat;*
- *Tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 14 may 2019-cu il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 1 000,00 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Hesab №: AZ65CTRE00000000000002118401**
**VÖEN: 1300204521**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T.BİK: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı 22 may 2019-cu il, saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 31 dekabr 2019-cu il tarixinədək.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:
**AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi**
**Əlaqələndirici şəxs: Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91.**

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tender komissiyası bildirir ki, 2019-cu il 20 mart tarixdə elan edilmiş nazirliyin aparatının inzibati binasının qarşısında avtomobillərin giriş və çıxışının tənzimlənməsi üçün 1 (bir) ədəd şlaqbaumun satın alınması ilə bağlı kotirovka sorğusunun nəticələri ləğv olunmuşdur.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Azərbaycan" qəzetinin 19.03.2019-cu il və 09.04.2019-cu il tarixli nömrələrində dövlət büdcəsi vəsaiti hesabına LOT 1 - Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması və LOT 2 - Qəza bərpa maşınlarına quraşdırılacaq avadanlıqların satın alınması məqsədilə dərc edilmiş açıq tenderdə iştirakçıların rəsmi müraciətləri nəzərə alınaraq, təkliflərin qəbulu vaxtı 16 may 2019-cu ilə, zərflərin açılışı isə 17 may 2019-cu il saat 16:00-a təyin edilmişdir.

**Əlaqələndirici şəxs: İlqar Tağıyev, 431-47-67/1033 və İntizam Novruzov, 431-47-67/3019.**

***Tender komissiyası***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Mərzili, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Ziya İsmayılova əzizi

**ƏBDÜLRƏHMAN İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və universitetin professor-müəllim heyəti ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərova yaxın qohumu

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9098
Sifariş 1363
Qiyməti 40 qəpik